AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

“Ümidli Gələcək”
Sosial Təşəbbüslər İctimai Birliyi

# MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ ÇALIŞANLARIN UŞAQLARLA DAVRANIŞINA DAİR METODİKİ VƏSAİT



“**Məktəbəqədər təhsil müəsissələrində çalışanların uşaqlarla davranışına dair metodiki vəsait”** Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin elan etdiyi **“Təhsildə könüllü fəaliyyətin təşkili” qrant müsabiqəsi** çərçivəsində Ümidli Gələcək Sosial Təşəbbüslər ictimai Birliyi tərəfindən icra edilən **"Məktəbəqədər Təhsil Müəssisələrinin Əməkdaşlarının Uşaqyönümlü Yanaşması, Uşaqlarla Davranış Qaydalarının Mənimsənilməsi və Uşaq Müdafiəsi Sisteminin Tətbiqi”** adlı layihəsi çərçivəsində hazırlanmışdır.

**Müəllif və tərtibatçılar:**

***Kəmalə Aşumova-*** *Ümidli Gələcək Sosial Təşəbbüslər İctimai Birliyinin icraçı direktoru*

***Rafiq Alışov -*** *Ümidli Gələcək STİB sosial xidmət mərkəzi – Yuvenal Ədliyyə Mərkəzinin hüquqşunası, vəkil*

***Gülşən Axundova -*** *Ümidli Gələcək STİB sosial xidmət mərkəzi – Yuvenal Ədliyyə Mərkəzinin psixoloqu, klinik psixoloq*

***Fidan Əkbərli –*** *Ümidli Gələcək STİB sosial xidmət mərkəzi -Azərbaycan Uşaq Qaynar Xətt xidmətinin direktoru*

***Anar Kamiloğlu-*** *dizayn işi üzrə mütəxəssis*

Bütün hüquqlar qorunur. Müəllif hüquqları Ümidli Gələcək Sosial Təşəbbüslər İctimai Birliyinə məxsusdur. Vəsaitdə əksini tapmış məlumatlar müəlliflərdən əvvəlcədən yazılı icazə alınmadan istifadə edilə bilər. Lakin bu zaman orijinal mənbəyə istinad vacibdir.

*Copyright © Birinci nəşr. Ümidli Gələcək Sosial Təşəbbüslər İctimai Birliyi, 2024.*

Metodiki vəsaitdə əksini tapmış fikirlər müəlliflərə və tərtibatçılara məxsusdur.

## MÜNDƏRİCAT

*GİRİŞ..........1*

*MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ UŞAQLARLA ETİK DAVRANIŞ QAYDALARI..........2*

*0-6 YAŞ UŞAQLARIN İNKİŞAF DÖVRLƏRİ, YAŞ DÖVRLƏRİNİN XÜSUSİYYƏTLƏRİ..........7*

*MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN TƏMƏL EHTİYACLARI, EDİLƏN YANLIŞLAR VƏ ZORAKILIQ..........9*

*UŞAQLARIN MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏSİNƏ ADAPTASİYASI DÖVRÜNDƏ PEDAQOJİ VƏ DİGƏR İŞÇİLƏRİN ROLU..........11*

*VALİDEYN – MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏSİ – UŞAQ ƏMƏKDAŞLIĞI..........14*

*UŞAQLARA QARŞI ZORAKILIĞIN AŞKARLANMASI..........16*

*MƏKTƏBƏQƏDƏR TƏHSİLDƏ UŞAQLARA QARŞI ZORAKILIĞIN AŞKARLANMASI ZAMANI MÖVCUD YÖNLƏNDİRMƏ PROSEDURLARI..........20*

*AZƏRBAYCANDA MÖVCUD SOSİAL XİDMƏT MƏRKƏZLƏRİ..........22*

*İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI..........23*

## GİRİŞ

Bu metodiki vəsait məktəbəqədər təhsil müəssisələrində çalışan təhsilverənlərin və digər işçilərin uşaqlarla etik davranış qaydalarını, məktəbəqədər təhsil müəssisələrində işləyənlərin hüquqları, uşaqların erkən yaş dövründə inkişafı, onların təhlükəsizliyinin və sağlamlığının, psixi və fiziki zorakılığın bütün formalarından qorunması sahəsində bilik və bacarıqlarının genişləndirilməsinə, müvafiq tövsiyələrin verilməsinə xidmət edir.

BMT-nin Baş Assambleyası tərəfindən 1959-cu ildə qəbul olunmuş "Uşaq Hüquqları Bəyannaməsi"ndə qeyd edilir ki, "Uşaq fiziki və əqli cəhətdən yetkin olmadığı üçün doğulduqdan əvvəl və sonra hüquqi müdafiə ilə yanaşı, qayğıya ehtiyac duyur. Uşaqlar həyat şəraitinə görə böyüklərdən daha həssasdır. Uşaqlar dövlətin hərəkətsizliyindən və ya fəaliyyətsizliyindən daha çox təsirlənir. Uşaqlar zorakılığa və istismara qarşı xüsusilə həssasdırlar.

Uşaqlar səsvermə hüququna malik deyillər, siyasi və iqtisadi təsirləri yoxdur. Çox vaxt səsləri eşidilmir".

Azərbaycan Respublikasının 1992-ci ildə qoşulduğu BMT-nin "Uşaq hüquqları haqqında Konvensiya"nın aşağıdakı maddələrində qeyd edilir:

**"Maddə 2.**

1. İştirakçı dövlətlər uşağın, onun valideynlərinin və ya qanuni qəyyumlarının irqindən, dərisinin rəngindən, cinsindən, dilindən, dinindən, siyasi və ya digər əqidələrindən, milli, etnik və ya sosial mənşəyindən, əmlak vəziyyətindən, səhhətindən və doğum şəraitindən və ya hər hansı başqa hallardan asılı olmayaraq, heç bir ayrı-seçkiliyə yol vermədən, onların yurisdiksiyası daxilində hər bir uşaq üçün bu Konvensiyada nəzərdə tutulan bütün hüquqlara hörmət bəsləyir və onları təmin edirlər.

**Maddə 6.**

2. İştirakçı dövlətlər uşağın sağ qalmasını və sağlam inkişaf etməsini maksimum mümkün olan dərəcədə təmin edirlər.

**Maddə 18.**

1. İştirakçı dövlətlər uşağın tərbiyəsi və inkişafı üçün hər iki valideynin ümumi və eyni məsuliyyət daşıması prinsipinin tanınmasını təmin etməkdən ötrü mümkün olan bütün səyləri göstərirlər. Uşağın tərbiyəsi və inkişafı üçün əsas məsuliyyəti valideynlər və ya müvafiq hallarda qanuni qəyyumlar daşıyır. Uşağın ən yaxşı mənafeyi onların əsas qayğı obyektidir.

2. Bu Konvensiyada şərh olunmuş hüquqlara təminat verilməsi və həyata keçirilməsinə yardım göstərilməsi məqsədilə iştirakçı dövlətlər valideynlərə və qanuni qəyyumlara uşaqların tərbiyəsi ilə bağlı vəzifələrini yerinə yetirməkdə lazımi kömək edir və uşaq tərbiyə müəssisələri şəbəkəsinin inkişafını təmin edirlər.



3. İştirakçı dövlətlər bütün lazımi tədbirləri görürlər ki, valideynləri işləyən uşaqların onlara baxmaq üçün nəzərdə tutulan xidmətlərdən və müəssisələrdən istifadə etmək hüququna malik olması təmin edilsin.

**Maddə 19.**

1. İştirakçı dövlətlər uşağı valideynlər, qanuni qəyyumlar və ya uşağa qayğı göstərən hər hansı digər şəxs tərəfindən fiziki və ya psixoloji zorakılığın, təhqirin və ya sui-istifadənin, qayğısızlığın və ya etinasız münasibətin, kobud rəftarın və ya istismarın, o cümlədən seksual sui-istifadənin hər cür formalarından müdafiə etmək məqsədilə bütün lazımi qanunvericilik, inzibati, sosial və maarifçilik tədbirlərini görürlər.

2. Lazım gələrsə, bu cür müdafiə tədbirlərinə uşağa və onun qayğısına qalan şəxslərə zəruri kömək göstərilməsi məqsədilə sosial proqramlar hazırlamaq üçün, habelə uşaqla yuxarıda sadalanmış kobud rəftar hallarının qarşısının alınmasının və aşkara çıxarılmasının, bu hallar barəsində məlumat verilməsinin, onların baxılmağa göndərilməsinin, təhqiq edilməsinin, uşağın müalicəsinin və sonrakı tədbirlərin digər formalarını həyata keçirmək, habelə, lazım gələrsə, məhkəmə prosesinə başlamaq üçün səmərəli prosedurlar daxil edilir".

Azərbaycan Respublikasının Konstitusiyasının 17-ci maddəsində qeyd edilir:

I. Cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir.

II. Uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur. Bu borcun yerinə yetirilməsinə dövlət nəzarət edir.

III. Valideynləri və ya qəyyumları olmayan, valideyn qayğısından məhrum olan uşaqlar dövlətin himayəsindədirlər.

IV. Uşaqları onların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən fəaliyyətə cəlb etmək qadağandır.

VI. Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarət edir.

"Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununda qeyd edilir:

Maddə 3. Uşaqlar barəsində dövlət siyasəti hər bir uşağın zəruri maddi və məişət şəraitində böyüyüb tərbiyə olunmasının, mütərəqqi tələblər əsasında təhsil almasının, layiqli vətəndaş kimi formalaşmasının təmin edilməsinə yönəldilir.

**Maddə 5.** Dövlət orqanları, bütün fiziki və hüquqi şəxslər öz fəaliyyətində uşaqların mənafelərini üstün tutmalı, onların hüquqlarının təmin olunmasına şərait yaratmalıdırlar. Azərbaycan Respublikasının normativ hüquqi aktları və müvafiq orqanların qərarları uşaq mənafelərinə zidd olmamalı və onların icrası uşaqların həyatına, inkişafına və tərbiyəsinə zərər gətirməməlidir. Uşağın hüquq və mənafelərini məhdudlaşdıran hər hansı əqd etibarsızdır.

**Maddə 8.** Hər bir uşağın yaşamaq, normal şəraitdə fiziki, əqli və mənəvi cəhətdən inkişaf etmək hüququ vardır. Dövlət bu şəraiti təmin edən iqtisadi, sosial-hüquqi və digər tədbirlər görməyi, sağlam və təhlükəsiz mühit yaratmağı öz öhdəsinə götürür.

**Maddə 11.** Hər bir uşağın hərtərəfli inkişaf etmək, milli və ümumbəşəri dəyərlərə uyğun, humanizm və əxlaqi prinsiplər əsasında tərbiyə almaq hüququ vardır. Uşağın tərbiyəsi ailədə *və təhsil* müəssisələrində aparılır. Dövlət uşaqların yaradıcılıq qabiliyyətinin, estetik tərbiyəsinin inkişafı üçün müxtəlif müəssisələr yaradır, habelə belə müəssisələrin yaradılmasında ictimai təşkilatlara köməklik göstərir.

**Maddə 12.** İstənilən fiziki və ya hüquqi şəxs uşaqlarla qəddar rəftar hallarını müşahidə etdikdə belə rəftarın qarşısının alınması üçün müvafiq orqanlara müraciət edə bilər.

Valideynlərin və ya digər şəxslərin uşaqlarla qəddar rəftara yol verməsi, onlara qarşı psixi və fiziki zor tətbiq etməsi, uşaqların hüquqlarını pozması Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada valideynlik hüquqlarından məhrum edilməyə, habelə inzibati və ya cinayət məsuliyyətinə səbəb olur.

**Maddə 28-1.**

28-1.1. Təhsil, səhiyyə, sosial müdafiə, məhkəmə, hüquq mühafizə, idman, mədəniyyət və istirahət sahələrində uşaqlarla müntəzəm təmasda olan şəxslər arasında uşaqların müdafiəsi və onların hüquqları barədə məlumatlılığın artırılması, həmin şəxslərin cinsi istismara və cinsi zorakılığa məruz qalmış uşaqların müəyyən edilməsi vasitələri barədə təlimatlandırılması üçün dövlət və yerli özünüidarəetmə orqanları, hüquqi və vəzifəli şəxslər tədbirlər görürlər. Uşaqlarla müntəzəm təmasda olan şəxslər arasında uşağın cinsi istismar və ya cinsi zorakılıq qurbanı olması barədə əsaslar olduqda konfidensiallığa əməl etməklə, uşaq hüquqlarını müdafiə edən orqanlara məlumat verilməsi imkanları barədə təbliğat və təşviqat işləri aparılır.

28-1.2. Uşaqlara qarşı cinsi istismar və ya cinsi zorakılıqla bağlı cinayətə görə məhkum olunmuş şəxslər uşaqlarla müntəzəm təmasla əlaqədar işə qəbul (təyin) və ya cəlb edilə bilməzlər.

## MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ UŞAQLARLA ETİK DAVRANIŞ QAYDALARI

Məktəbəqədər təhsil müəssisələrində münasibətlər əsas dəyərlər və etik davranış qaydaları əsasında qurulmalıdır. Bu münasibətlər təhsil prosesinin iştirakçıları olan təhsilalanları, təhsil müəssisəsinin rəhbərini, təhsilverənləri (pedaqoji işçilər) – tərbiyəçi-müəllimlər, metodistlər, musiqi rəhbərlərini, digər işçiləri–tibb işçiləri, texniki işçiləri, dayələri, valideynləri və ya digər qanuni nümayəndələri özündə birləşdirir. Təhsil prosesinin iştirakçıları məktəbəqədər təhsil müəssisələrində gündəlik etik dilemmalarla üzləşirlər. Beləliklə, məktəbəqədər təhsil müəssisələrində təhsilalanları (uşaqları) əhatə edən bütün maraqlı tərəfləri nəzərə alaraq və təhsilin məzmununda uşaqyönümlü yanaşmanı əsas tutaraq, təhsil müəssisələrinin fəaliyyətində mühüm rol oynayacaq etik davranış qaydalarını təqdim edirik.

Məktəbəqədər təhsil müəssisələrində işləyənlər sağlam psixoloji mühit yaratmağa çalışmalıdır. Bununla yanaşı, əməkdaşlıq, səmərəli ünsiyyət üsulları və şəffaflıq ön planda olmalıdır. Mütəxəssislərin diqqəti uşaqlar üçün nəyin daha yaxşı olmasına, inkişafyönümlü təlim mühitinin yaradılmasına yönəlməlidir. Bu həm uşağın fərdi inkişafına, həm də qrupun bir üzvü kimi formalaşmasına təkan verəcəkdir.

**Əsas dəyərlər:**

- ❖ məktəbəqədər yaş dövrünü insan həyatının unikal və dəyərli mərhələsi kimi qiymətləndirmək;
- ❖ uşaqların daha yaxşı inkişafı və öyrənməsi üçün daim yenilənmiş biliklərə əsaslanmaq;
- ❖ uşaq və ailə arasındakı əlaqəni mütəmadi olaraq qiymətləndirmək və möhkəmləndirmək;
- ❖ uşaqların cinsindən, irqindən, dilindən, dinindən, siyasi əqidəsindən, etnik mənsubiyyətindən, sosial vəziyyətindən, mənşəyindən, sağlamlıq imkanlarından asılı olmayaraq, ailə, icma və cəmiyyət kontekstində başa düşülməsi və dəstəklənməsini təmin etmək;
- ❖ hər bir fərdin (uşaq, ailə üzvü və həmkarı) şərəf və ləyaqətinə hörmət etmək;
- ❖ uşaqlar, ailələr və həmkarlar arasındakı müxtəlifliyə hörmət etmək;
- ❖ uşaqyönümlü yanaşmanı təmin etmək;
- ❖ BMT-nin Uşaq Hüquqları Konvensiyasını nəzərə alaraq, hər bir fəaliyyətdə uşağın maraqlarını əsas götürmək;
- ❖ uşaqların sağlam psixoloji mühitdə hərtərəfli inkişafı və rifahını, şəxsiyyət kimi formalaşmasını təmin etmək məqsədilə məsuliyyətləri düzgün bölüşdürmək.

### Etik davranış qaydaları haqqında

Davranış qaydaları toplusu dörd bölmədən ibarətdir və hər bölmədə peşəkar münasibətlərdən bəhs edilir:

*1. Uşaqlarla davranış;*
*2. Ailələrlə davranış;*
*3. Həmkarlarla davranış ;*
*4.İcmada davranış.*

Hər bir bölmədə məktəbəqədər təhsil sahəsində çalışanların məsuliyyətlərindən bəhs edilir. Burada nümunəvi təcrübələri əks etdirən *tələb olunan davranışlar*, qadağan edilən və ya icazə verilən təcrübələri təsvir edən bir sıra *prinsiplər* qeyd olunmuşdur. Tələb olunan davranışlar dedikdə mütəxəssislər tərəfindən icrası zəruri olan davranışlar nəzərdə tutulur. Prinsiplər isə davranışların formalaşmasına kömək edir və bu sahədə fəaliyyət göstərənlərə üzləşdikləri etik dilemmaları həll etməyə kömək edir.



Etik davranış qaydaları toplusu bəzi etik dilemmaların həlli üçün xüsusi göstərişlər versə də, bu sahədə fəaliyyət göstərənlər burada yazılanlarla öz peşəkar bacarıqlarını birləşdirməyi bacarmalıdır. Etik davranış qaydaları toplusu üzərinizə düşən öhdəlikləri əhatə edir və fəaliyyətinizdə əməl etməli olduğunuz etik davranışları özündə cəmləyir. Bir dəyər digərinə zidd olduqda, etik dilemma ilə qarşılaşa bilərsiniz. Qarşılaşdığınız dilemmanın etik həlli yolunu tapmaq üçün bu metodiki vəsaitə müraciət etmək və bütün ələqədar tərəflərlə məsləhətləşmək sizin peşəkar məsuliyyətinizdir.

## Uşaqlara qarşı daşıdığınız etik məsuliyyətlər

Məktəbəqədər yaş dövrü uşaqların intellektinin, şəxsiyyətinin formalaşması və sosial-emosional inkişafı üçün çox mühüm mərhələdir. Bu mərhələdə sizin əsas öhdəliyiniz hər bir uşaq üçün təhlükəsiz mühit yaratmaq, uşaqlara qayğı göstərib, təhsil verməkdir. Siz uşaqların inkişafı və öyrənməsi üçün münbit zəmin yaratmalı, onların birgə yaşamasına, oynamasına və öyrənməsinə kömək etməlisiniz. Siz həmçinin uşaqlarda müstəqillik, məsuliyyət və cavabdehlik hissi, öz qüvvəsinə inam, dözümlülük və iradi xüsusiyyətlərin formalaşmasına dəstək göstərməlisiniz.



**Tələb olunan davranışlar**

1. Erkən yaş dövründə qayğı və təhsil haqqında təməl biliklərə yiyələnmək və bu sahədə davamlı olaraq yeniliklərlə maraqlanmaq;
2. Təlim və tərbiyə prosesini məktəbəqədər yaş dövründə təhsil, uşaq inkişafı ilə bağlı bilik və bacarıqlara, bu sahədə təcrübələrə, eləcə də hər bir uşağın fərdi ehtiyaclarına əsaslanmaqla formalaşdırmaq;
3. Hər bir uşağın qabiliyyət və potensialını aşkar edib inkişafına nail olmaq, uşaqların şərəf və ləyaqətinə hörmət etmək;
4. Uşaqların həssas təbəqədən olduğunu və böyüklərdən asılı olduqlarını anlamaq;
5. Uşaqların sosial, emosional, koqnitiv və fiziki inkişafını dəstəkləyən təhlükəsiz və mənəvi-psixoloji cəhətdən sağlam pedaqoji mühit yaratmaq və onu qorumağa çalışmaq;
6. Uşaqların inkişafını və öyrənməsini izləmək üçün qiymətləndirmə metodikalarından istifadə etmək və bu yolla əlavə dəstəyə ehtiyacı olan uşaqları müəyyənləşdirmək;
7. Xüsusi qayğıya ehtiyacı olan uşaqların inklüziv mühitdə oynamaq və öyrənmək hüququnu təmin etmək;
8. Bütün uşaqların müvəffəqiyyətli olması üçün zəruri xidmətlərə əlçatanlığını təmin etmək;
9. Bir yanaşmadan digərinə təhlükəsiz və rəvan keçidi təmin etmək üçün ailələrlə işləmək.

**Prinsiplər**

1. Ən başlıca prinsip uşaqlara zərər verməmək olmalıdır. Uşaqlara emosional və fiziki cəhətdən zərər verən, hörmətsiz, ləyaqəti alçaldan, təhlükəli, istismar edici və ya qorxudan hərəkətlər nümayiş etdirməmək.
2. Uşaqlardan cinsinə, irqinə, dilinə, dininə, etnik mənsubiyyətinə, sosial vəziyyətinə, mənşəyinə, sağlamlıq imkanlarına, immiqrasiya statusuna görə imtina etmək, yaxud bəzilərinə xüsusi üstünlüklər verməklə və ya onları təhsildən, fəaliyyətlərdən kənarlaşdırmaqla ayrı-seçkiliyə yol verməmək.
3. Uşaq barədə məlumatların məxfiliyini qorumaq məqsədilə aidiyyəti şəxslər (o cümlədən ailələr və işçi heyəti) tərəfindən uşaqla bağlı qərarlar qəbul edilərkən hər iki tərəfin fikrini öyrənmək.
4. Hər bir uşağa fərdi yanaşmaq.
5. Fiziki, cinsi və emosional zorakılıq, eləcə də etinasızlığın risk faktorları və simptomları ilə bağlı məlumatlı olmaq. Uşaq istismarı və etinasızlıqla bağlı qanunvericiliyi və prosedurları bilmək və onlara əməl etmək.
6. Uşaq istismarı və ya etinasızlıqdan şübhələndikdə aidiyyəti qurumlara məlumat vermək və müvafiq tədbirlərin görülməsini təmin etmək.
7. Digər şəxs tərəfindən uşağın zorakılığa məruz qalması və ya etinasızlıq barədə məlumat verildikdə, həmin şəxsə uşağı qorumaq üçün müvafiq tədbirlər görməkdə kömək etmək.
8. Uşaqların sağlamlığına, təhlükəsizliyinə və ya rifahına təhlükə yaradan hər hansı vəziyyətdən xəbərdar olduqda onları qorumaq və valideynlərini bu haqda məlumatlandırmaq.

## Ailələrə qarşı daşıdığınız etik məsuliyyətlər

Ailə uşağın inkişafında təməl rolunu oynayır. Uşaqların şəxsiyyətyönümlü inkişafında məktəbəqədər təhsil müəssisələri ailələrlə qarşılıqlı fəaliyyət göstərməli, ortaq hədəfləri olmalıdır.

**Tələb olunan davranışlar**

1. Ailələrlə effektiv işləmək üçün təməl bilik və bacarıqlara yiyələnmək və davamlı olaraq bu sahədəki yeniliklərlə maraqlanmaq;
2. Ailələrlə qarşılıqlı münasibət və tərəfdaşlıq əlaqələri qurmaq;
3. Ailə üzvlərini tanımaq, onları uşaqların tərbiyəsi və təliminə, ümumi qərarların qəbuluna cəlb etmək;
4. Ailələri dinləmək, güclü tərəflərini kəşf etmək, uşaq tərbiyəsində onları dəstəkləmək;
5. Ailələrin uşaq tərbiyəsindəki dəyərlərini anlamaq və onların uşaqları üçün qərar vermək hüquqlarına hörmətlə yanaşmaq (zərər vermədikləri təqdirdə);
6. Uşağın təhsili və inkişafı haqqında məlumatı ailələrlə bölüşmək və onları uşaq inkişaf dövrləri ilə bağlı maarifləndirmək;
7. Ailələrin şəbəkələşməsini dəstəkləmək və lazım olduqda, mütəxəssislər, digər ailələr və peşəkar xidmətlərlə qarşılıqlı əlaqə yaratmaq imkanlarını təmin etmək.



**Prinsiplər**

1. Məhkəmə qərarı ilə ailə üzvünün müəssisəyə girişinə məhdudiyyət qoyulubsa, onlara uşağın olduğu qrup otağına daxil olmasına icazə verməmək.
2. Ailələri təhsil proqramı (kurikulum), uşaq inkişafının dəyərləndirilməsinin nəticələri ilə bağlı məlumatlandırmaq.
3. Ailənin uşağı ilə bağlı mühüm qərarların qəbulunda iştirakını təmin etmək.
4. Ailələrlə səmərəli ünsiyyət qurmaq üçün səy göstərmək.
5. Ailələri uşaq inkişafının dəyərləndirilməsinin mahiyyəti, məqsədi və əldə edilmiş şəxsi məlumatlardan necə istifadə ediləcəyi barədə məlumatlandırmaq.
6. Dəyərləndirmənin nəticələri ilə bağlı məlumatlar məxfi qalmalı və yalnız zərurət yarandıqda paylaşılmalıdır.

7. Ailəni övladı ilə bağlı xəsarət alma, yoluxucu xəstəliklərə yoluxma kimi risklər və emosional streslə nəticələnə biləcək hadisələr barədə məlumatlandırmaq.

8. Uşağın risk altında olduğu hallar istisna olmaqla, məxfiliyi qorumaq, ailənin şəxsi toxunulmazlıq hüququna hörmət etmək.

9. Münaqişəli ailədən olan uşaqla bağlı müşahidələrinizi bölüşməli, iştirakçı tərəflərlə əsaslandırılmış qərarlar qəbul etməyə kömək məqsədilə açıq iş aparmalısınız. Hər hansısa tərəfdən çıxış etməkdən çəkinməlisiniz.

10. Zərurət yarandıqda ailələri peşəkar dəstək xidmətləri barədə məlumatlandırmaq və aidiyyəti üzrə yönləndirmək.

**Həmkarlara qarşı daşıdığınız etik məsuliyyətlər**

Əməkdaşlığa söykənən iş mühitində hər bir insana şəxsiyyət olaraq hörmət edilir, peşəkar sferada məmnunluq təmin olunur və daim müsbət münasibətlər qurulur. Əsas məqsəd həmkarlara qarşı məsuliyyət, məhsuldar fəaliyyəti dəstəkləyən və peşəkar ehtiyacları təmin edən mühiti yaratmaqla, əlaqələri möhkəmləndirib davam etdirməkdir.



**Tələb olunan davranışlar**

1. Həmkarlarla qarşılıqlı hörmət, dürüstlük, məxfilik və əməkdaşlığa əsaslanan səmərəli münasibət qurmaq və davam etdirmək;

2. Resursları həmkarlarla bölüşmək, əlverişli iş mühitini formalaşdırmaq üçün əməkdaşlıq etmək;

3. Məktəbəqədər təhsil sahəsində çalışanların ehtiyaclarını müəyyən etmək və onlara peşəkar inkişafda dəstək olmaq.



**Prinsiplər**

1. Həmkarlarınızın nüfuzuna, uşaqlar və ailələrlə işin səmərəliliyinə xələl gətirəcək hadisələrdə yer almamaq.

2. İş yoldaşınızın peşəkar davranışı ilə bağlı narahatlıqlarınız olduqda, ilk növbədə həmin şəxsin ləyaqətinə və işçilər arasında ola biləcək müxtəlifliyə hörmət göstərməklə narahatlığınızı həmin şəxsə bildirmək, daha sonra kollegial və ya məxfi şəkildə həll etməli olduğunuza qərar vermək.

3. Əməkdaşların şəxsi və ya peşəkar davranışları ilə bağlı fikirləri ifadə edərkən ehtiyatlı davranmaq. İfadələri elmi biliklərə əsaslanmaqla, uşaqların meyil və maraqlarını, yaş xüsusiyyətlərini nəzərə alaraq istifadə etmək.

4. Həmkarınıza cinsinə, irqinə, dilinə, dininə, siyasi əqidəsinə, etnik mənsubiyyətinə, sosial vəziyyətinə, mənşəyinə, sağlamlığına və ya şəxsi münasibətinə görə ayrı-seçkilik yaradan fəaliyyətlərdə yer almamaq.

**İşəgötürənlər qarşısında öhdəliklər**

**Tələb olunan davranışlar**

1. Yüksək səviyyədə keyfiyyətli xidmətin təmin edilməsində kömək göstərmək.

**Prinsiplər**

1. Məktəbəqədər təhsil proqramının (kurikulumun) tələblərinə əməl etmək.

2. Yalnız icazə verildiyi təqdirdə müəssisə adından danışmaq və ya hərəkət etmək. Müəssisə adından danışarkən və şəxsi mülahizənizi ifadə edərkən bu sahədə məlumatlı olmaq.



3. Uşaqları qorumaq üçün hazırlanmış qanun və qaydaları pozmamaq, belə pozuntulardan xəbərdar olduqda isə qanunvericiliyə uyğun olaraq müvafiq tədbirlər görmək.

4. Əgər hansısa bir həmkarınızın davranışı ilə bağlı narahatlığınız varsa və uşaqların rifahı risk altında deyilsə, narahatlığınızı həmin şəxsə bildirmək. Uşaqlar risk altındadırsa və ya həmkara bunu bildirdikdən sonra da vəziyyət yaxşılaşmırsa, həmkarınızın qeyri-etik davranışı barədə müvafiq şəxslərə yaxud aidiyyəti qurumlara məlumat vermək.

## İcma və cəmiyyət qarşısında daşıdığınız etik məsuliyyətlər

Cəmiyyət qarşısında daşıdığınız məsuliyyətlər ailələrin fərqli ehtiyaclarını əhatə edən fəaliyyət planları hazırlamaq, ehtiyac duyduğunuz, lakin hazırda mövcud olmayan sosial layihələrin irəli sürülməsində iştirak etmək, uşaqlara qarşı məsuliyyəti birlikdə bölüşdüyünüz qurum və mütəxəssislərlə əməkdaşlıq etmək, ailələrin bu qurum və mütəxəssislərə əlçatanlığını təmin etmək, uşaqların sosial inkişafına dəstək olmaqdır. Uşaqların inkişafı və təhsili ilə bağlı öhdəliklərinizdən əlavə, onların rifahı və müdafiəsi istiqamətində görülən işləri cəmiyyətə çatdırmaq məqsədilə keçirilən layihələrdə iştirak etməli, daha geniş icmalarda uşaqların maraqlarını müdafiə etmək üçün kollektiv öhdəlikləri qəbul etməli, hər yerdə uşaqların mənafeyini qorumalısınız. Bu bölmədə təqdim olunan fərdi və kollektiv davranışlar uşaqlar qarşısında müəyyən öhdəliklərinizin göstəricisidir.

**Tələb olunan kollektiv davranışlar**

1. Uşaqlar və onların ailələrinin, həmçinin məktəbəqədər təhsil müəssisələrində çalışanların təhlükəsizliyi, sağlamlığı, təhsili və rifahı ilə bağlı problemlərin həlli üçün peşəkarlar və müvafiq qurumlar arasında əməkdaşlıq qurmaq, müəssisə daxilində qruplararası əməkdaşlığı təmin etmək.

2. Bütün uşaqların sağlamlıq, qidalanma və yaşayış mühiti ilə bağlı problemlərin həlli, təhlükəsiz ətraf mühitin formalaşması istiqamətində təhsil, tədqiqat və təbliğat yolu ilə fəaliyyət göstərmək.

3. Bütün uşaqlar üçün keyfiyyətli erkən qayğı və təhsil proqramlarının əlçatan olması üçün çalışmaq.

4. Müxtəlif mənbələri özündə birləşdirən erkən yaş dövrü üzrə qiymətləndirmə sistemlərinin məktəbəqədər təhsilin keyfiyyətinin yüksəldilməsi üçün tətbiqini təmin etmək.

5. Uşaqların inkişafı və onların ehtiyacları ilə bağlı ailələrin maarifləndirməsini həyata keçirmək.

6. Uşaq hüquqlarının cəmiyyət tərəfindən qorunması və bütün uşaqların rifahı üçün məsuliyyətlərin bölüşdürülməsi istiqamətində tədbirlər görmək.

7. Uşaqların və ailələrin rifahını təmin edən siyasət və qanunları dəstəkləmək, qanunverici bazanın hazırlanmasında iştirak etmək. Məktəbəqədər yaş dövründə qayğı və təhsil sahəsində peşəkar inkişafı daha da artırmaq.



**Fərdi prinsiplər**

1. Gördüyünüz işlər və öhdəlikləriniz barədə açıq və dürüst şəkildə məlumat vermək.

2. Vəzifə funksiyalarına uyğun öhdəlikləri qəbul etmək və yerinə yetirmək.

3. Təhsil proqramının reallaşdırılması istiqamətində fəaliyyətinizlə bağlı hesabat verərkən obyektiv olmaq.

4. Qiymətləndirmə strategiyaları və alətlərindən düzgün istifadə etmək və nəticələri barədə ailələri məlumatlandırmaq.

5. Uşaqların hüquqlarının müdafiəsi ilə bağlı qəbul edilmiş qanunvericilik aktlarını bilmək və onlara əməl etmək.

6. Uşaqların sağlamlığına, təhlükəsizliyinə və rifahına təhlükə yaradan hər hansı hadisə və ya vəziyyətlərdən xəbərdar olduqda onları qorumaq, valideynləri və müəssisə rəhbərliyini məlumatlandırmaq.

7. Uşaqların müdafiəsinə xidmət edən qanun və qaydaların pozuntusuna yol verməmək.

8. Qanun pozuntusuna dair məlumatınız və sübutlarınız olduqda, bu barədə aidiyyəti qurumlara məlumat vermək.

**Kollektiv prinsiplər**

1. Qaydalarda uşaqların rifahına xidmət etməyən məqsədlər müşahidə olunarsa, bu qaydalarda dəyişiklik etmək üçün təkliflər vermək.

2. Uşaqların rifahını təmin etmək üçün xidmətlər göstərən müəssisələrin öz öhdəliklərini yerinə yetirmədiyinə dair sübutlarınız olduqda, bu barədə aidiyyəti qurumlara məlumat vermək. Problemi həll olunanadək diqqətdə saxlamaq.

3. Müəssisə fiziki və psixoloji zorakılığa məruz qalan uşaqları müdafiə edə bilmədikdə, bu xidmətlərin təkmilləşdirilməsi istiqamətində çalışmaq.

## 0-6 YAŞ UŞAQLARIN İNKİŞAF DÖVRLƏRİ, YAŞ DÖVRLƏRİNİN XÜSUSİYYƏTLƏRİ

Yaş dövrləri uşaq psixologiyasının ən mühüm və hələ də tam araşdırılmamış məsələlərindən biridir. Yaş dövrlərinin düzgün müəyyən olunması hər bir dövrdə təlim-tərbiyə işlərinin aparılmasına və uşaq inkişafının doğru istiqamətdə dəstəklənməsinə şərait yaradır. Ailədən sonra uşaqların tərbiyəsində və inkişafında əhəmiyyətli rolu olan məktəbəqədər təhsil müəssisələrinin təhsilverənlərinin (pedaqoji işçilərin - tərbiyəçi-müəllimlər, metodistlər, loqopedlər, musiqi rəhbərləri və s.) və digər işçilərin (tibb işçiləri, dayələr, texniki işçilər) erkən uşaqlıq dövrünün inkişaf mərhələləri haqqında məlumatlı olması onların istər ailə mühitində, istərsə də üzvü olduğu sosial qruplarda uşaqların məruz qaldığı münasibətləri ətraflı şəkildə müşahidə etməsinə imkan yaradır. Etik davranış qaydalarında da qeyd olunduğu kimi, pedaqoji və digər işçilərin etik məsuliyyəti uşaqların daha sağlam mühitdə inkişafını təmin edir.

Uşaq inkişafı davamlı proses olduğu üçün yaş dövrləri arasındakı keçidi müəyyənləşdirmək çətindir. Erkən uşaqlıq dövründə inkişaf prosesi hər bir uşaq üçün fərdi qaydada getdiyindən bir uşağın hazırda olduğu yaşdakı inkişaf xüsusiyyətləri digər yaşıdlarının xüsusiyyətlərindən (nitqi, hərəki aktivliyi, şəxsi bacarıqları və s.) fərqlənə bilər. Digər tərəfdən, fərdi xüsusiyyətlərin hər bir uşağın böyümə şəraitindən, genetikasından və şəxsi faktorlardan asılı olmasına baxmayaraq, uşaqların bütün inkişaf mərhələlərini ardıcıl və fasiləsiz olaraq keçdiyi bir qanunauyğunluqdur (*məs. normal inkişaf göstəriciləri müşahidə olunan bir uşaqda nitq 1 yaşından inkişaf etməyə başlayırsa, digərində 2-3 yaşından başlaya bilər, bir uşaq 6 ayının əvvəllərindən tam sərbəst otura bilirsə, digərində bu proses 7-ci ayın sonlarına doğru müşahidə edilə bilər*).

**Erkən uşaqlıq dövrü üç mərhələni əhatə edir:**
- çağalıq dövrü;
- körpəlik dövrü;
- məktəbəqədər yaş dövrü.

Uşaq inkişafının yaş dövrləri üzrə təsnifində *"aparıcı fəaliyyət"* prinsipi diqqəti xüsusilə cəlb edir. Məhz *"aparıcı fəaliyyət"* prosesində uşaq inkişafının hər bir dövründə şəxsiyyətin idrak və psixoloji strukturunu dəyişən yeni münasibətlər, yeni biliklər və onların mənimsənilməsi yolları meydana çıxır. Xüsusilə, məktəbəqədər yaş dövründə olan uşaqların daha çox zaman keçirdiyi və onların inkişafına birbaşa təsir göstərən məktəbəqədər təhsil mühitini nəzərə alaraq, məktəbəqədər təhsil müəssisəsinin pedaqoji və digər işçilərinin bu məlumatları mənimsəməsi uşaqlara həssas yanaşma istiqamətində bilik və bacarıqlarının artmasına səbəb olur.



**Çağalıq dövrü** – uşağın anadan olduğu andan bir yaşa qədər olan dövrü əhatə edir. Bu dövr üçün *"aparıcı fəaliyyət"* növü böyüklərlə birbaşa emosional ünsiyyətdir.

- Emosional ünsiyyət vasitəsilə uşaqlarda görmə, eşitmə, əzələ və hərəkət hissiyyatları ilə nizamlanan sensomotor və səmtləşmə hərəkətləri formalaşır.
- Yaş dövrünün sonlarına doğru uşaqlarda yerimə və qeyri-səlis səslər vasitəsilə nitqin təməlinin qoyulması onun ünsiyyətdə olmaq və ətrafında baş verənləri kəşf etmək imkanlarını artırır.
- Bir yaşını tamamlamamış uşağın 6 ayından etibarən təkrarlanan hecalar (ba-ba, də-də, ma-ma, əp-pə, nə-nə və s.) nəticəsində 1-5 sözdən ibarət söz ehtiyatı yaranır.
- Çağalıq dövrünün ən mühüm xüsusiyyəti uşağın onu əhatə edənlərlə ünsiyyətə və emosional əlaqələrə ehtiyac duymasıdır. Uşaq belə ünsiyyətlə vaxtında təmin edilmədikdə onun psixi inkişafında ləngimə baş verə bilər.

Hazırda Azərbaycanda bu yaş kateqoriyasından olan uşaqların məktəbəqədər təhsilə cəlb edilməsi beynəlxalq təcrübə ilə müqayisədə kifayət qədər az olsa da ölkədə uşaq strategiyası istiqamətində atılan addımlar və maddi rifahın yaxşılaşdırılması baxımından ailədə valideynlərin hər ikisinin iş həyatının olduğunu nəzərə alsaq, yaxın illərdə məktəbəqədər təhsil müəssisələrində bu yaş dövründən olan uşaqların sayının nəzərəçarpacaq də rəcədə artması gözlənilir.

**Körpəlik dövrü** - 1 yaşdan 3 yaşadək olan dövrü əhatə edir. Bu dövr üçün *"aparıcı fəaliyyət"* növü əşyəvi-manipulyativ fəaliyyətdir. Dərketmə və hərəki fəallığın artdığı bu dövrdə:
- əsas ünsiyyət vasitəsi olan nitq formalaşır;
- uşaq ətrafında baş verənləri anlamağa və eşitdiyi sözləri təkrarlamağa başlayır;
- əşyaları adlandırır, situativ sözlərdən əşyalarla əlaqələndirilmiş sözlərə və cümlələrə keçir;
- əyani-əməli təfəkkür inkişaf edir;
- uşaqlarda 18 ayından etibarən "mən" konsepsiyası formalaşır. Məhz buna görə də uşaqlar böyüklərlə ünsiyyətlərində "mən", "özüm" ifadələrinə daha çox yer verirlər;
- 18 aylığında uşaqların lüğət ehtiyatı təxminən 300 sözü əhatə edir, 3 yaşadək onların söz ehtiyatı 1000-dən çox olur və 3 sözdən ibarət cümlələr qurmağı bacarır.

Bu yaş dövründə uşağa yanaşma, onun şəxsiyyət kimi dəyərləndirilməsi və təməl ehtiyaclarının özünün iştirakı ilə ödənilməsinə imkan yaradılması gələcək dövrlərdə həm 3 yaş böhranının öhdəsindən uğurla gəlməsinə, həm də psixoloji inkişaf baxımından pozitiv meyarlara söykənən gələcək nəslin yetişdirilməsinə səbəb olur.

**Məktəbəqədər yaş dövrü –** 3 yaşdan 6 yaşadək olan dövrü əhatə edir. Bu dövrdə:
- uşağın psixi funksiyalarının inkişafı – təxəyyülü formalaşır;
- insana münasibətdə ümumi fikir formalaşır;
- məkanda bələdləşmə əmələ gəlir;
- tabeçilik və idarəetməyə şüurlu münasibət yaranır;
- ümumi motorikanın, nitqin və bütövlükdə şəxsiyyətin intensiv inkişafı gedir.

Bu yaş dövründə olan uşaqlarda *"aparıcı fəaliyyət"* növü rollu oyunlardır. Oyun zamanı abstrakt təfəkkürün təməli qoyulur. Uşaqlar olduqları mühitdə rastlaşdıqları davranışları oyun personajları vasitəsilə təkrarlayır. 4 yaşın sonlarından etibarən tez-tez "niyə?", "nə üçün?" suallarından istifadə edirlər. 5-6 yaş dövründə uşağın nitqində ən sonda formalaşmalı olan səslərin tələffüzü (ş, r, h, l, z səsləri) tam aydın şəkildə olmalıdır.

Uşaqlar məktəbəqədər təhsil müəssisəsində keçirilən tədbirlərdə daha aktiv çıxış edirlər. Xüsusilə bu yaş dövrünün sonuna yaxın rollu oyun fəaliyyəti yerini təlim fəaliyyətinə verməyə başlayır, uşaqlarda məkanla yanaşı zamana bələdləşmə bacarığı formalaşır.

Məktəbəqədər təhsil müəssisələrində uşaqların say nisbəti yaşlarına uyğunluq nəzərə alınmaqla yanaşı onların şəxsi inkişafını dəstəkləyəcək meyarlara cavab verməlidir.

Həyatının ilk illəri uşağın gələcəyinə - beyninin inkişafına, sağlamlığına, rifahına, məktəbdə öyrənmək qabiliyyətinə, hətta yetkinlik dövründə əldə edə biləcəyi gəlirə böyük təsir göstərir. Həyatının bu mərhələsində körpənin beyni hər saniyə 1 milyondan artıq yeni əlaqə yaradır ki, bu temp heç vaxt təkrarlanmır. Bu baxımdan erkən dövr önəmlidir. Məhz buna görə düzgün qidalanma, stimullaşdırma və qayğı körpənin həyatının ilk 1000 günündə onun beyninin inkişafı üçün çox vacibdir.

Erkən uşaqlıq dövrünün inkişafına sərmayə qoyduqda, uşaqlar, ailələr və cəmiyyət aşağıdakılardan faydalanır:
- azyaşlı uşağın beyninin vaxtında inkişaf etməsi;
- 1- 2 yaşlı uşaqlarda koqnitiv, nitq və motor bacarıqlarının daha yaxşı inkişafı;
- sosial-emosional davranışın və rifahın yaxşılaşması;
- 3-5 yaşlı uşaqların məktəb təliminə hazırlıqlı olması;
- məktəbdə yaxşı təlim nəticələri və yüksək təhsil səviyyəsi;
- uşaqların təhlükəsiz və sağlam mühitdə yaşaması;
- səhiyyə, təhsil və sosial təminat sektorlarının payına düşən yükün azalması;
- gələcək işçi qüvvələrinin keyfiyyət və məhsuldarlığının artması;
- cinayətkarlıq səviyyəsinin və sosial qeyri-stabilliyin aşağı düşməsi; nəsillərarası yoxsulluq sikllərinin qırılması.

## MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARDA TƏMƏL EHTİYACLAR, BURAXILAN SƏHVLƏR VƏ ZORAKILIQ

Məktəbəqədər yaşlı uşaqların inkişafında ən çox ziddiyyətlərə səbəb olan təməl ehtiyaclar aşağıdakılardır:

1. *Yemək vərdişləri;*
2. *Yuxu rejimi;*
3. *Tualet vərdişinin formalaşdırılması;*
4. *Cinsi tərbiyə;*
5. *Təmizlik və şəxsi gigiyena vərdişlərinin formalaşdırılması.*

Bu təməl ehtiyacların vaxtında və normal şəkildə ödənilməməsi uşaqların formalaşmasına və inkişafına zərərli təsir göstərə bilər. Məktəbəqədər təhsil müəssisələrində uşaqların təməl ehtiyaclarının ödənilməsində yol verilən xətalar əsasən aşağıdakı kimi qruplaşdırılmışdır.

*Yemək vərdişləri:*

❖ ağlayan, özünü yerə çırpan, sıxılan, qəzəblənən uşaqların bu davranışlarının aclıq ehtiyaclarından qaynaqlana biləcəyini anlamamaq;
❖ uşağı yedizdirmək üçün onun xoşuna gələn şeylərdən istifadə etmək, yemədiyi halda isə onu cəzalandırmaq;
❖ yeməyin oturaq şəraitdə yedizdirilməməsi;
❖ uşaqları məcburi yedizdirmək, onlara yeməsi üçün təzyiq göstərmək;
❖ uşağın boşqabına ehtiyacından çox yemək qoymaq;
❖ sağlamlığa mənfi təsir edən qidaların (şirniyyat, qazlı sular, çips və s.) istifadəsində məhdudiyyətlərin olmaması;



❖ sərbəst şəkildə yemə vərdişinin formalaşdırılmaması;
❖ sevmədikləri qidaları yemək üçün israr etmək.

Erkən uşaqlıq dövründə yaranmış qidalanma vərdişi uşaqların fiziki və psixi sağlamlığı, gələcək qidalanma rasionunun düzgün formalaşmasında mühüm əhəmiyyətə malikdir. Uşaqlar çox vaxt böyüklərin davranışlarını təqlid etdiyi üçün evdəki qidalanma mühiti, valideynlərin onlara nə dərəcədə diqqət göstərdiyi məktəbəqədər təhsil müəssisəsində onların davranışlarından anlaşıla bilər. Bundan əlavə, məktəbəqədər təhsil müəssisələrində rast gəlinən yuxarıda sadalanan yanlışlar uşağın fiziki cəhətdən əziyyət çəkməsinə, sağlamlıq problemlərinə gətirib çıxara bilər, həmçinin bir şəxsiyyət kimi formalaşmasına, iradi inkişafına mənfi təsir göstərər.

1. *Yuxu rejimi;*

❖ uşağı məcburi yatızdırmağa çalışmaq (daha tez, yaxud daha gec);
❖ uşağın yuxuya getməsi üçün təhlükəsiz və rahat mühitin yaradılmaması;
❖ qərarsız və səbrsiz davranışlar nümayiş etdirmək;
❖ uşaqlardakı ayrılıq təşvişi və müstəqillik cəhdlərinin anlaşılmaması;
❖ yuxuda qorxan uşaqları zorla oyatmaq, şillə vurub özünə gətirmək;
❖ məktəbəqədər təhsil müəssisəsində adaptasiyada çətinliklərin aradan qaldırılmaması.



Uşaqlar məktəbəqədər təhsil müəssisəsində yatmaqda çətinlik çəkə, o cümlədən fərdi yuxu problemləri ola bilər. Belə olduğu halda, məktəbəqədər təhsil müəssisəsindəki işçi heyəti necə davranmalı olduğunu bilməlidir. Məsələn, beş yaşlı uşaqların əksəriyyəti gündüz yatmağı sevmir. Bununla bağlı valideynlə söhbət aparılmalı, əgər uşağın günorta yuxusuna tələbatı yoxdursa, şəraitə uyğun müvafiq tədbirlər (ayrı otaqda saxlanılmalı, yuxuya cəlb etmək üçün fiziki aktivliyin artırılması və s. ) görülməlidir.

2. *Tualet vərdişinin formalaşdırılması:*

❖ uşaqların dayələr tərəfindən böyük bayıra çıxmamağa məcbur edilməsi;
❖ uşağın tualet vərdişinə yiyələnməyə hazır olub-olmaması ilə bağlı məlumatsızlıq;
❖ uşağı tualetə getməyə məcbur etmək;
❖ uşağın altını gec dəyişdirmək.

Uşaqlarda tualet vərdişi əksər hallarda valideyn tərəfindən yaradılsa da, məktəbəqədər təhsil müəssisəsinə gedən uşaqda bu vərdişin formalaşdırılması ana və müəssisənin birgə səyi ilə aparılmalıdır. Ev yaxud məktəbəqədər təhsil müəssisəsində natamam tualet tərbiyəsinə məruz qalan uşaqlarda qəbizlik, əsəbilik və digər travmalar yarana bilər.



3. *Cinsi tərbiyə:*

❖ uşaqlara öz cinsləri, qarşı cinslə olan fərqlər və fiziki xüsusiyyətləri ilə bağlı yanlış yaxud natamam məlumatlar vermək;
❖ uşağa yaxşı və pis toxunuşları öyrətməkdən çəkinmək;
❖ cinsi orqanları tanıtmaq istəməmək;
❖ çoxalma ilə bağlı olan sualları cavablandırmamaq;
❖ uşağı başqalarının yanında soyundurmaq, birlikdə tualetə aparmaq;
❖ cinsi orqanına toxunan uşağa əsəbləşmək, danlamaq, utandırmaq;
❖ uşaqlara cinsi tərbiyə verərkən həddsiz çox və yaş səviyyələrinə uyğun olmayan məlumatlar vermək.

Cinsi tərbiyə uşaqlara qadın yaxud kişi olmaq, öz gender rollarını başa düşmək, özü və əks cins nümayəndələrinin xüsusiyyətləri haqqında məlumatlı olmaq məqsədilə verilən tərbiyədir. Uşaqlarla aparılan cinsi tərbiyə və maarifləndirmə işləri onların erkən cinsi inkişafına səbəb olmur. Əksinə, açıq, qısa və yaş səviyyəsinə uyğun şəkildə verilən məlumatlar uşağın valideynlərinə olan güvənini artırır, həmçinin onları istismardan qoruyur.

4. *Təmizlik və şəxsi gigiyena vərdişlərinin formalaşdırılması:*

❖ təmizliklə bağlı sadə prosedurların izah edilməməsi;
❖ uşaqlara təmizlik barədə məlumat verilirkən maraqlı fəaliyyətlərdən istifadə etməmək;
❖ uşaqlara praktik tətbiq üçün şərait yaradılmaması;
❖ hər şeyi onların yerinə etməyə çalışmaq;
❖ şişirdilmiş tapşırıqlar vermək;
❖ cəzalandırmaq;
❖ obsessiv davranışlara sövq.

Uşaqlarda təmizlik və gigiyena vərdişlərini formalaşdırarkən edilən yanlışlar onların şəxsiyyətinə bilavasitə təsir edir. Yanlış aşılanmış davranışlar nəticəsində obsessiv şəxsiyyətin təməlini qoya, o cümlədən məsuliyyət hissinin yaranmasını gecikdirə bilərsiniz. Uşaqlıqda aşılanmış təmizlik vərdişləri gələcəkdə sağlam bir şəxsin yetişməsinə zəmin yaradır.



## UŞAQLARIN MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏSİNƏ ADAPTASİYASI DÖVRÜNDƏ PEDAQOJİ VƏ DİGƏR İŞÇİLƏRİN ROLU

Məktəbəqədər təhsilə cəlb olunmaq uşaqların həyatında vacib keçid mərhələlərindən biri olmaqla valideynlərin və təhsilverənlərin üzərinə böyük öhdəliklər qoyur. İlk olaraq valideynlər övladının məktəbəqədər təhsil müəssisəsinə getməsi fikrinə hazır olmalıdırlar. Uşaqlar valideynlərinin yaşadığı hissləri asanlıqla duya bilir, valideyn nə qədər gərgindirsə, övladına da istəmədən bu gərginliyi ötürür.

Bu gün uşaqlar erkən yaşlarından mobil telefon və ya planşetlərdən istifadə edir, internetdə daha çox vaxt keçirirlər. Bu isə onların inkişafında, xüsusilə nitqində ləngiməyə gətirib çıxarır. Belə uşaqlarda daha çox aqressivlik müşahidə olunur, onlar hiss və emosiyalarını idarə etməkdə çətinlik çəkirlər.

Məktəbəqədər təhsil müəssisəsi uşaqlar üçün sağlam və təhlükəsiz mühit yaratmaqla onların sağlamlığına, mənəvi və psixoloji durumuna zərər vuracaq istənilən informasiyadan və təbliğatdan müdafiə edir. Bununla yanaşı, məktəbəqədər təhsil mərhələsi insan həyatında sosiallaşmanın ilkin və ən vacib vaxtı hesab olunur, uşaq ailə üzvləri və qohumlarından başqa digər insanlarla da ünsiyyət qurmağa başlayır, onlarda dostluq anlayışı formalaşır.

Lakin hər bir uşağın məktəbəqədər təhsil müəssisəsinə adaptasiyası fərqli olur. Bəzi uşaqlar bu dəyişikliyi həyəcan və sevinclə qarşılasalar da, digər uşaqlar qorxu və təşviş hissi ilə yanaşı ağlama krizi keçirirlər. Bu dövrün uşağın həyatına təsirini xoşbəxt istiqamətə çevirmək müəssisə ailə ilə əməkdaşlıq etdikdə daha asan olur və uğurla nəticələnir.

Məktəbəqədər təhsil müəssisəsinə alışmaqda çətinlik çəkən uşaqlarda aşağıdakı xüsusiyyətlər müşahidə olunur:

- ❖ valideyndən ayrılıq narahatlığının olması;
- ❖ qeyri-müəyyənlik və naməlumluqdan yaranan narahatlıq;
- ❖ uşağın xarakterik xüsusiyyətləri (introvert, utancaq, özünə qapalı və s.);
- ❖ ailə üzvlərinin bir-birinə çox bağlı və ya asılı olması;
- ❖ evdə uşaq istədiyini etməkdə sərbəstdir, məktəbəqədər təhsil müəssisəsinin qaydaları bu sərbəstliyi məhdudlaşdırdığına görə onun üçün çəbedici deyil;
- ❖ uşağın ətrafındakı yenilik və dəyişikliklərə çətinliklə alışması;
- ❖ valideynlər tərəfindən tərk edilmə qorxusu;
- ❖ valideynin münasibətləri (həddindən artıq qoruyucu və ya dözümlü münasibət);
- ❖ valideynin uşağın məktəbəqədər təhsil müəssisəsindəki göstəriciləri ilə bağlı narahatlıq keçirməsi;
- ❖ öncəki mənfi təcrübənin mövcudluğu;
- ❖ ana və ya atanın xəstəliyi;
- ❖ ailənin natamam olması;
- ❖ ailədə yeni körpənin doğulması və ya ananın hamilə olması;
- ❖ evdə qalan bacı və ya qardaşa qarşı qısqanclıq hissi.

Məktəbəqədər təhsil müəssisəsinə yeni uşaqları qəbul edərkən yuxarıda sadalananlarla bağlı valideynlərdən məlumat toplanmalı və onlara uyğun yanaşma tətbiq edilməlidir.

Uşağın məktəbəqədər təhsil müəssisəsinə asanlıqla adaptasiya olunması üçün tərbiyəçi-müəllimlər tərəfindən valideynlərə aşağıdakı tövsiyələr verilə bilər:



- ❖ evdə uşaqla məktəbəqədər təhsil müəssisəsi ilə bağlı pozitiv söhbətlərin aparılması;
- ❖ məktəbəqədər təhsil müəssisəsindən öncəki dönəmdə uşaqlara oradan bəhs edən şəkilli nağılların danışılması;
- ❖ məktəbəqədər təhsil müəssisəsi mühitinə qismən uyğunlaşdırılmış rollu oyunların təşkili;
- ❖ adaptasiya dövründə ailə üzvlərinin fikirlərinin üst-üstə düşməsi;
- ❖ uşaq məktəbəqədər təhsil müəssisəsindən evə qayıdarkən orada keçirdiyi vaxtla bağlı söhbətlərin aparılması;
- ❖ uşaqda tərk edilmə qorxusunu yarada biləcək "səni uşaq bağçasına aparıram, bağçaya qoyuram" kimi ifadələrin işlədilməməsi. Bu ifadələrin əvəzinə "sən indi bağçaya gedirsən, axşam yenə bir yerdə olacağıq", "səni evdə gözləyəcəyik" və s. bu kimi ifadələrdən istifadə edilməsi;
- ❖ ailə üzvlərinin (valideynlərin, bacı və ya qardaşın) vaxtilə getdikləri məktəbəqədər təhsil müəssisəsi ilə bağlı xoş təəssüratlarını bölüşməsi;
- ❖ valideyn uşağı məktəbəqədər təhsil müəssisəsinə apararkən stresli olmamağa çalışmalı və onun yanında tərbiyəçi-müəllimlərlə təşviş yaradacaq mövzuları müzakirə etməməli (məs: "Ağlasa, zəng edərsiz", "Yemək yeməsə, mənə deyərsiz", "Yatmasa, xəbər edin, evdən gəlib götürsünlər" və s.);
- ❖ uşaq məktəbəqədər təhsil müəssisəsinə qədər valideynlərindən, xüsusilə anasından ayrı vaxt keçirməyibsə, ilk günlər onu etibar etdiyi yaxınlara (qohumlara) qısa müddətə əmanət etmək faydalı olar.

Məlumdur ki, bu gün bəzi ailələrdə uşaqlar doğulduğu andan etibarən öz hiss və emosiyalarını yaşamağa öyrədilmirlər. Valideynlər uşağın əvəzinə qərarlar verir (ana deyir ki, uşağa istidir, soyunmalıdır və ya soyuqdur, geyinməlidir, uşaq acdır, yoxsa toxdur, su içmək və ya tualetə getmək lazımdır ya yox). Hətta uşaq hər hansı bir oyuncağı tədqiq etməyə çalışdıqda onu özünün etməsinə cəsarətləndirmək əvəzinə, uşağın əlindən alıb düzəldir, hazır versiyanı ona təqdim edirlər. Belə olan halda uşaq sərbəst böyümək əvəzinə daim valideynlərinin yardımına ehtiyac duyur, problemin öhdəsindən gəlmək və ya həll yollarını tapmaq bacarığı inkişaf etmir.

Adaptasiya dönəmində pedaqoji işçilər tərəfindən uşaqların yaş xüsusiyyətlərinin nəzərə alınması da vacib məsələlərdən biridir. Əgər 9 aylıq uşaq pozitiv simadan daha çox həyəcanlanırsa, 40 aylıq bir uşağın diqqətini tərbiyəçi-müəllim yaradıcı bir oyuncaqla oynamağı təklif edərək cəlb edə bilər.

Uşağı mərhələli olaraq alışdırmaq üsulu bu gün ən səmərəli hesab edilən üsullardandır. Məktəbəqədər təhsil müəssisəsinə gəlməzdən əvvəl uşaqla mütəmadi söhbətlər aparılmaqla məktəbəqədər təhsil müəssisəsinin valideynlə birgə əməkdaşlığı şəraitində uşağı məktəbəqədər təhsil müəssisəsinə uyğunlaşdırmağa nail olmaq olar.

1. Əvvəlcə uşaqla birgə bir gün bir neçə dəqiqəlik təhsil müəssisəsinə ekskursiya təşkil edilə bilər, uşağın məktəbəqədər təhsil müəssisəsinin mühiti, tərbiyəçi-müəllimlər və digər uşaqlarla tanışlığı yaranar. Beləliklə, ilkin mərhələdə uşaqda qorxu hissi azalar.
2. Növbəti gün üçün tərbiyəçi-müəllim valideyni günün ən əyləncəli saatı (rəsm çəkmək, sərbəst oyun, stolüstü oyunlar, kölgə teatrı, nağıl oxuma və s.) barədə məlumatlandırmalıdır. Uşağı hər gün uşaq bağçasına gəlməsinə həvəsləndirmək lazımdır.
3. Növbəti gün uşağın valideyni ilə birgə iki fəaliyyətə qoşulması üçün şərait yaratmaq lazımdır. Beləliklə, uşağın məktəbəqədər təhsil müəssisəsində keçirdiyi zaman artacaq. .
4. Daha sonra uşağı səhər gətirib, günün ilk yarısına qədər məktəbəqədər təhsil müəssisəsində saxlamaq və onu gözləmək tövsiyə edilir.
5. Sonrakı gün valideyn uşağı gündüz yuxusundan sonra götürməlidir.
6. Tərbiyəçi-müəllimlər və valideyn uşağa yalan məlumat verməkdən çəkinməlidir. Çalışmaq lazımdır ki, uşağı deyilən saatda müəssisədən götürsünlər. Tərbiyəçi-müəllim valideyn gələnədək uşağa hələ həmin saatın yaxınlaşmadığını xatırlada bilər.
7. Təxminən ikinci həftədən sonra uşağın məktəbəqədər təhsil müəssisəsinə adaptasiya müddəti tamamlanır, bu müddət ərzində kollektiv də, valideynlər də uşağa yanaşmasında diqqətli olmalıdırlar.

Yadda saxlamaq lazımdır ki, uşağın məktəbəqədər təhsil müəssisəsinə uğurlu adaptasiyası heç də o demək deyil ki, uşaq növbəti illərdə problemlə üzləşməyəcək. Həm ailə vəziyyəti, həm də yeni gələn uşaqlar və ya tərbiyəçi-müəllim dəyişiklikləri də uşaqların münasibətlərinin zədələnməsinə səbəb ola bilər.




Uşaqları kiçik yaş qruplarından böyük yaş qruplarına keçirəndə də məktəbəqədər təhsil müəssisəsinin pedaqoji kollektivi tərəfindən adaptasiya prosesi mərhələli şəkildə davam etdirilməlidir. Bu zaman valideyn passiv mövqedən çıxış edir, məktəbəqədər təhsil müəssisəsindəki mühit isə daha aktiv rol oynayır. Mərhələli alışdırma hər yaş qrupundan olan uşaqlarda istənilən vərdişə yiyələnmə və ya tərgitmə prosesində əhəmiyyətli rola malikdir.

**İnklüziv təhsilin təşkili və uşaqların adaptasiyası.** İnklüziv təhsil uşaqların fiziki, psixi, intellektual və digər xüsusiyyətlərindən asılı olmayaraq,

onların öz həmyaşıdları ilə eyni mühitdə təhsilə cəlb edilməsidir. Əlilliyi olan uşaqların əlilliyi olmayan həmyaşıdları ilə birlikdə təhsili hər kəs üçün səmərəli formadır. Belə ki bütün uşaqların ortaq mühitdə həyata keçirilən tədris prosesində iştirakı təhsilverənləri uşaqlara fərdi yanaşmağa sövq edir. Əlavə olaraq, müxtəlif araşdırmaların nəticələri göstərir ki, əlilliyi olan uşaqlarla əlilliyi olmayan uşaqların birgə inklüziv mühitdə olması fərqliliyə münasibəti dəyişməyə, özünə hörmətin və həmyaşıdların qəbulunun yaxşılaşdırılmasına səbəb olur ki, bu, sosial yöndən ədalətli və ayrı-seçkiliyə yol verməyən cəmiyyətin qurulmasına töhfə verir.



***Məktəbəqədər təhsil müəssisəsi mühitində inklüziv təhsilə necə uyğunlaşmalı?***

Bu daha çox məktəbəqədər təhsil müəssisəsi kollektivinin peşəkar bacarıqlarından və istifadə etdiyi metodikalardan asılıdır. Pedaqoji işçilər üçün həmin qruplarda əlilliyi olan uşaqların ehtiyaclarını dəstəkləyən əsas amil, bütün uşaqların ümumi və xüsusi ehtiyaclarına cavab vermək və uşaqyönümlü olmaqdır. Nəzərə alsaq ki, məktəbəqədər yaşda olan uşaqlar daha çox gördüyü davranışı təkrarlamağa meyilli olur, bu zaman əsas öhdəliyin tərbiyəçi-müəllimin üzərinə düşməsi fikri ilə razılaşa bilərik. İnklüziv təhsilin həyata keçirilməsində uşaqyönümlü pedaqogika vacibdir. Uşaqyönümlü pedaqogika uşaqları ön plana qoymaq, onların ehtiyaclarını, bacarıq və maraqlarını, həmçinin öyrənmə tərzlərini diqqət mərkəzində saxlamaq və tərbiyəçi-müəllimin öyrənmə prosesində köməkçi rolunu oynaması deməkdir. Qeyd etdiyimiz kimi, məktəbəqədər təhsil müəssisəsindəki uşaqyönümlü yanaşmada səmərəlilik üçün ən vacib məsələ tərbiyəçi-müəllimin və digər işçilərin davranışıdır.

Tərbiyəçi-müəllim digər işçilərin köməyindən istifadə edərək uşaqyönümlü pedaqogikanı tətbiq etməklə uşaqların inklüziv təhsilə adaptasiyasını həyata keçirə bilər.

**1. Faydalı təlim imkanları**

❖ Uşaqlardan nə gözlədiyinizi və məşğələnizin məqsədini izah edin.
❖ Uşaqların artıq mənimsədiyi biliklərə əsaslanın.
❖ Uşaqların gündəlik təcrübələrinə əsaslanın.
v Evdə və məktəbəqədər təhsil müəssisəsində baş verənlər arasında əlaqə qurun.
❖ Gündəlik həyatda öyrəndiklərini təcrübədən keçirmək üçün uşaqlara imkanlar verin.
❖ Uşaqlara biliklərini nümayiş etdirmək və məşğələyə mühüm töhfələr vermək üçün imkanlar yaradın.

**2. Uşaqların müxtəlif yollarla öyrəndiklərini qəbul etmək**

❖ Şifahi: danışılan və ya yazılan sözlər ilə öyrənmə (yaddaş, xatırlama).
❖ Məntiqi: mülahizələr (rəqəmlər, nümunələr, ölçülər) vasitəsilə öyrənmə.
v Vizual (əyani/görmə): əyani vəsaitlər ilə öyrənmə (xəritələr, diaqramlar, şəkillər).
❖ Bədən: hərəkət vasitəsilə öyrənmək (süjetli-rollu oyunlar).
❖ Musiqi: səslər (qafiyə, ritm, təkrarlama) vasitəsilə öyrənmə.
❖ Şəxsiyyətlərarası: qrup işi vasitəsilə öyrənmə (sosial əlaqələr).
❖ Şəxsiyyətdaxili: fərdi təhlil üsulu ilə öyrənmə (fərdi iş, fikrini cəmləmək).

**3. Birgə öyrənmə**

❖ Uşaqlara qrup daxilində yaradılmış kiçik qruplar şəklində öyrənmək və işləmək üçün imkanlar yaradın.
❖ Uşaqları bacarıqlarına görə qruplaşdırmayın, fərqlilik öyrənmə təcrübəsini zənginləşdirir, fikirləşib cavab vermələri üçün qrup işi ilə bağlı təcrübələri müzakirə etməyə və düşünməyə müəyyən vaxt sərf edin.

**4. Cəlbedici və əlçatan təlim məkanları**

Uşaqyönümlü təlim məkanlarının bəzi xüsusiyyətləri:
❖ Fiziki məkan: bütün uşaqların müəssisə və qrup daxilində, ətrafda sərbəst hərəkət edə bilmələri, fərdi və qrup şəklində işləmələri, lazım olduqda öyrənmə vasitələrinə əlçatanlığının təmin edilməsi;
❖ Öyrənmə guşələri: uşaqların müstəqil və ya kollektiv şəkildə öyrənmələri üçün qrupunuzda müxtəlif öyrənmə guşələri yaradın. Hər bir guşədə resurslar və təlimatlar yerləşdirilməlidir. Həmin guşələr uşaqlara əvvəl öyrəndiklərini zənginləşdirmək, yeni bacarıqlarını təcrübədə tətbiq etmək üçün imkan yaradır. Uşaqlar öyrənmə guşələrinin planlaşdırılmasında, təşkilində və idarə edilməsində iştirak edə bilərlər.



**Təqdimat yeri:** qrup otağında bütün uşaqların əl işlərini nümayiş etdirə biləcəyiniz və fəaliyyətləri haqqında rəy verə biləcəyiniz təqdimat lövhəsi hazırlayın. Təqdimat lövhəsini tez-tez dəyişin və onu tədris vasitəsi kimi istifadə edin.

**Kiçik kitabxana:** kitablar çox səmərəli tədris vasitələridir. Kitablar yeni anlayışları öyrənməyə, uşaqların nitqini inkişaf etdirməyə və məlumatı başa düşmələrinə kömək edir.

## VALİDEYN – MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏSİ – UŞAQ ƏMƏKDAŞLIĞI

Bu əməkdaşlıq təhsil və tərbiyədə, eləcə də uşaqların məktəbəqədər təhsil müəssisəsinə adaptasiyasında mühim rol oynayır. Bu, hər bir rolun bir-biri ilə qarşılıqlı əlaqədə olduğu bərabərtərəfli üçbucaqdır. Uşaqlar məlumat və bilikləri kiçik yaşlarından mənimsəməyə başlayır. Uşağın sağlam şəkildə inkişafı üçün əlverişli mühit şərtdir. Valideynlər uşaqların ilk müəllimləridir və onlara həyat dərsi verirlər. Valideynlər uşaqları üçün uyğun olan normal mühiti yaratmağa çalışırlar. Onlar övladlarına nümunədir. Amma elə bir vaxt gəlir ki, onlar övladlarını məktəbəqədər təhsil müəssisəsinə, məktəbə yola salır. Orada uşaqlar ikinci müəllimləri ilə tanış olur. Uşaqların məktəbəqədər təhsil müəssisəsinə getməsi ilə valideynlərin rolu öz işini dayandırmır. Məktəbəqədər təhsil müəssisəsi ilə müntəzəm qarşılıqlı əlaqə uşağın böyüməsi və inkişafına, onun şəxsiyyət kimi formalaşmasına zəmin yaradır.

***Valideynlərin məktəbəqədər təhsil müəssisəsinə edə biləcəyi kömək***

**İştirak etmək:** məktəbəqədər təhsil müəssisəsinin işçilərinə, bir valideyn olaraq uşağınızın təhsili və tərbiyəsi ilə maraqlandığınızı göstərin. İşə övladınızın təhsilverənləri ilə pozitiv münasibət qurmaqla başlaya bilərsiniz. Övladınızla bağlı kritik məsələləri başa düşməli və qəbul etdiyiniz informasiyanı obyektiv dəyərləndirməyi bacarmalısınız. Siz bir valideyn olaraq övladınızın təlim və tərbiyəsində aktiv iştirak etməlisiniz ki, tərbiyəçi-müəllimin tapşırıqlarını mənimsəyə və həyata keçirməkdə ona dəstək ola biləsiniz.



**Özünü maarifləndirmə:** ali təhsil, yaxud uşaq tərbiyəsi və inkişafı mövzusunda müxtəlif təlimlərə qatılıb sertifikatlar ala bilərsiniz, amma unutmayın ki, dövr getdikcə dəyişilir. Siz bu sahədəki ən son yeniliklərlə mütəmadi tanış olmalı, uşaq inkişafının müəyyən mərhələləri ilə bağlı daim maariflənməlisiniz. Belə olan təqdirdə, rastlaşa biləcəyiniz hər hansı xoşagəlməz halı vaxtında aşkar edib, aradan qaldırmaq üçün tədbirlər görməyiniz asan olacaq. Həmçinin övladınızın öyrənmə prosesinə ən yaxşı formada töhfə verə bilməsi üçün mövcud olan ən son öyrənmə və tədris metodikalarından xəbərdar olmalısınız.

**Yoldaş olmaq:** övladınızın tərbiyəçi-müəllimi ilə dost olmağa ehtiyac yoxdur. Ona öz dəstəyinizlə kömək edə bilərsiniz. Hər şeyi məktəbəqədər təhsil

müəssisəsinin üzərinə atmaq yerinə, uşağınızın maraqlarını, güclü və zəif tərəflərini pedaqoji heyətlə bölüşməlisiniz ki, onlar bu məlumatlardan bəhrələnərək övladınız üçün fərdi yanaşma formalaşdıra bilsin.

***<u>Məktəbəqədər təhsil müəssisəsinin valideynlərə edə biləcəyi kömək:</u>***

Ünsiyyət qurmaq: məktəbəqədər təhsil müəssisəsi valideynlə mütəmadi olaraq əməkdaşlıq etməlidir. Valideynlə ünsiyyəti əlçatan etmək üçün səmərəli üsullardan biri də valideyn iclaslarının təşkilidir. Bununla belə, ünsiyyətdə olmaq üçün valideyn iclasını da gözləmək lazım deyil, bəzi məlumatlar fərdi şəkildə bölüşülməlidir. Təhsilverənlər uşağın davranışında hər hansı problemi və ya geriləmə müşahidə edərsə, dərhal valideynə məlumat verməlidir. Unutmayın ki, valideynlə qurulmuş sağlam ünsiyyət, uşaqla da yaxşı əlaqə qurmağa zəmin yaradır.

Məktəbəqədər təhsil müəssisəsi ilə qurulan ünsiyyətə nəzarət: valideyn təkcə tərbiyəçi-müəllimlə deyil, həm də məktəbəqədər təhsil müəssisəsinin digər işçiləri ilə əlaqə qurur. Buna görə də tərbiyəçi-müəllim uşağın hərtərəfli inkişafını dəstəkləmək üçün müəssisədə başqaları ilə də əlaqə yaratmaqda valideynə kömək etməlidir. Təhsilverənlər sadəcə məlumat vermək məqsədilə ünsiyyət qurmamalı, valideyn və uşaqla birlikdə uşağa ən yaxşı formada həll yolu tapmağa cəhd etməlidir.

Ünsiyyət qurmaq üçün düzgün vasitələr seçmək: hər bir valideynlə düzgün ünsiyyət vasitəsi seçməlisiniz. Hamı ilə eyni üsulla ünsiyyət qurmaq olmur. Bəzi valideynlər üz-üzə görüşlərə üstünlük versə də, bəziləri telefonla danışmağa, bəziləri isə valideyn iclaslarında iştiraka üstünlük verir. Buna görə də valideynlərlə söhbət aparıb uyğun ünsiyyət vasitəsi müəyyənləşdirilməlidir.

***<u>Məktəbəqədər təhsil müəssisəsinin uşaqlara edə biləcəyi kömək:</u>***

**Ünsiyyət qurmaq:** uşaqların özlərini rahat və təhlükəsiz mühitdə hiss edə bilməsi üçün düzgün ünsiyyət qurmaq zəruridir. Uşaqlara öz fikirlərini sərbəst şəkildə bildirmələrinə imkan verilməlidir. Təhsilverənlər utancaq, introvert uşaqları müzakirələrə cəlb etmək üçün müxtəlif üsullardan istifadə etməlidirlər.

Uşaqları müstəqil işləməyə həvəsləndirmək: təhsilverənlər uşaqlara hər şeyi izah edə bilər, lakin bu onların əvəzinə edilməlidir mənasına gəlmir. Uşaqlara problemi sərbəst şəkildə həll etmələri üçün şərait yaradılmalıdır. Onlara böyüklərdən kömək istəməzdən əvvəl özlərinin cəhd göstərmələri öyrədilməlidir.

**Məqsədlər formalaşdırmaq:** uşaqlara kiçik hədəflər qoyun. Onlara çətin görünsə də, hədəfə çatmaq üçün çalışsınlar. Uşaqlar daxili itələyici qüvvə ilə doğulurlar, məktəbəqədər yaş dövründə bu qüvvədən pozitiv mənada faydalana, onlara öz hədəflərinə çatmaqda dəstək ola bilərsiniz.

Bacarıqları müəyyənləşdirmək: bütün uşaqlar eyni deyil. Onlar müxtəlif sahələrdə yaxşı ola bilər. Bir mütəxəssis kimi onların bacarıqlarını müəyyənləşdirə və öz bacarıqlarını daha yaxşı göstərə bilmələri üçün kiçik qruplara ayıra bilərsiniz.



***<u>Valideynlərin uşaqlara edə biləcəyi kömək:</u>***

**Düzgün suallar vermək:** uşaqlar evə qayıdarkən onlara verdiyiniz sual, adətən, “Bu gün bağçada nə etdin?” olur. Siz bu suala çox qısa cavablar ala bilərsiniz. Əgər siz konkret cavablar almaq istəyirsinizsə, bu halda düzgün sual verməyi bacarmalısınız. Məsələn, uşağınızın məktəbəqədər təhsil müəssisəsində çəkdiyi bir rəsmi gördükdə, ondan bunu necə etdiyini, dostlarının hansı rəsmləri çəkdiyini və onun çəkdiyi rəsmə tərbiyəçi-müəllimin necə reaksiya verdiyini soruşa bilərsiniz.

**Müqayisə etməmək:** hər bir uşaq unikaldır. Uşağınızı digər yaşıdları ilə müqayisə etməyin. Onun zəif tərəflərinin fərqinə vara bilərsiniz, amma güclü tərəflərinə də diqqət yetirin. Adətən, valideynlər uşaqlarını tərifləməkdən çəkinirlər. Uşaq yalnız uğur qazandıqda onu tərifləməyə meyilli olurlar. Unutmayın ki, o uğur qazanmasa belə səyləri qiymətləndirilməyə layiqdir.

Uşağınızın məktəbəqədər təhsil müəssisəsi ilə əlaqə qurmaq: uşağınızın getdiyi məktəbəqədər təhsil müəssisəsi ilə əlaqədə olmağınız vacibdir. Əgər uşağınızın öyrənmədə çətinliyi, yaxud hiperaktivliyi (paralel hansısa bir problemi) varsa, məktəbəqədər təhsil müəssisəsinə öncədən xəbər verin. Övladınızla bağlı məlumat əldə etməyin ən yaxşı yolu məktəbəqədər təhsil müəssisəsi ilə daim əlaqədə olmaqdır.

**Könüllü iştirakçılıq:** vaxtınız buna imkan verirsə, məktəbəqədər təhsil müəssisəsində həyata keçirilən tədbirlərdə könüllü surətdə iştirak edə bilərsiniz. Təhsilverənlərə tədbirlərin həyata keçirilməsində, yaxud gəzintilərin təşkilində kömək edə bilərsiniz.



## UŞAQLARA QARŞI ZORAKILIĞIN AŞKARLANMASI

6 yaşadək uşaqların inkişafında iki əsas kateqoriya üstünlük təşkil edir: ailə və məktəbəqədər təhsil müəssisəsi. Uşaqların gündəlik vaxtlarının böyük əksəriyyətinin bu iki kateqoriya arasında keçməsi hər iki tərəfin uşaqların inkişafı ilə bağlı bilik və bacarıqlarının artırılmasını zəruri edir. Xüsusilə məktəbəqədər təhsil müəssisəsi dönəminin uşaqların gələcək təhsil həyatlarına, beləliklə də hər bir uşağın şəxsiyyət kimi formalaşmasına təsirini, bu dönəmdən etibarən intensiv inkişafı nəzərə alaraq bugünkü cəmiyyət üçün aktual olan mövzular daha dərindən araşdırılır. Yadda saxlamaq lazımdır ki, uşağın istər ailədə, istərsə də məktəbəqədər təhsil müəssisəsində zorakılığa məruz qalması və bu halların aşkarlandığı halda gizlədilməsi Uşaq Hüquqları Konvensiyası baxımından uşaqların hüquqlarının tapdanmasına və beləliklə, cəmiyyət üçün potensial cinayətkar və ya intihara meylli nəsillərin yetişdirilməsinə gətirib çıxarır.

Valideynlər, məktəbəqədər təhsil müəssisəsinin pedaqoji heyəti və digər işçiləri tərəfindən uşaqlara qarşı kobud rəftar və zorakılıq onların sağlamlığına, təhlükəsizliyinə, inkişafına və ləyaqətinə zərər vura bilən fiziki və (və ya) emosional davranışın bütün formalarını, cinsi zorakılığı, qayğısızlığı və etinasızlığı özündə cəmləşdirir.

**Uşaqlara qarşı kobud rəftarın əsas dörd növü müəyyən edilir:**

1. ***Fiziki***
2. ***Cinsi***
3. ***Psixoloji (emosional)***
4. ***Etinasız münasibət (zərərvurma və ya baxımsızlıq)***

Uşaqların olduqları mühitdə zorakılığa məruz qaldıqlarını müəyyənləşdirmək üçün hər bir zorakılıq növünün əlamətlərini və zorakılığa məruz qalmanın uşaqlarda səbəb olduğu dəyişiklikləri bilməklə məktəbəqədər təhsil müəssisələrinin mütəxəssisləri, tərbiyəçi-müəllimlər uşaqların qorunmasına və daha sağlam mühitdə böyüməsinə şərait yarada bilərlər.

Hansı hallarda zorakılıq faktlarından şübhələnə bilərik?

***1. <u>Fiziki zorakılıq</u>*** **- uşağın fiziki və psixi sağlamlığının ciddi (tibbi yardım tələb edən) pozulmasına, inkişafdan geriləməyə gətirib çıxaran qəsdən zədələrin vurulmasıdır.**

*Bura eləcə də uşağın spirtli içki, narkotik və toksik maddələrdən istifadəyə cəlb edilməsi də aiddir.*

Uşağa qarşı fiziki zorakılıq valideynlər, onları əvəz edən şəxslər və ya digər böyüklər tərəfindən tətbiq edilə bilər.

**Belə hallar daha çox elə ailələrdə baş verir ki, orada:**

- fiziki cəzanın uşağa tərbiyə vermək üsulu olduğuna əmindirlər;
- valideynlərin tələbkarlığı uşağın yaşı və inkişaf səviyyəsinə uyğun deyil;
- valideynlərin (və ya onlardan birinin) psixi xəstəlikləri var;
- emosional-psixoloji mühit pozulub (tez-tez baş verən münaqişələr, qalmaqallar, qarşılıqlı hörmətsizlik);
- valideynlər yaxınlarının ölümü, xəstəlik, iş yerinin itirilməsi, iqtisadi böhran və s. səbəblərdən stres vəziyyətindədirlər;
- uşaqlar müəyyən xüsusiyyətlərə malikdirlər: vaxtından əvvəl doğulma, somatik və ya psixi xəstəliklər, həddindən artıq fəallıq, hövsələsizlik;
- valideynlər (və ya onlardan biri) alkoqolizmdən, narkomanlıqdan, toksikomanlıqdan əziyyət çəkirlər.



**Uşağa qarşı fiziki zorakılıq faktının təyin edilməsi**

**Zədələrin xüsusiyyətləri:**

- üz, bədən və əl-ayaqda qançırlar, sıyrıntılar, yaralar, qayış zərbələrinin, dişləmənin, qaynar əşyalarla və siqaretlə yandırmanın izləri;
- əl və ayaqlarda əlcək və ya corab şəklində, eləcə də sağrı nahiyələrində qaynar məhlullarla yanma izləri;
- sümüklərin zədələnməsi və sınması, oynaqların şişməsi və ağrıması;
- vurulub çıxardılmış və laxladılmış dişlər, ağızda və dodaqlarda kəsiklər və ya çapıqlar;
- baş nahiyəsində dazlaşma və qançır sahələri;
- daxili orqanların zədələnməsi;
- südəmər uşaqlarda “silkələnmə sindromu”.

Zədələrin təsadüfi olmadığını aşağıdakı əlamətlər göstərir:

- ❖ zədələrin spesifikliyi (barmaqların, əşyaların izləri) və çoxsaylı olması, müxtəlif vaxtlarda baş verməsi (yeni və sağalan);
- ❖ zədələrin xüsusiyyətləri ilə böyüklərin izahları arasındakı uyğunsuzluq;
- ❖ kobud rəftarın digər əlamətləri (inkişafda geriləmə, sanitar-gigiyenik baxımsızlıq);
- ❖ zədələrin istirahət və bayram günlərindən sonra əmələ gəlməsi.

**Uşaqları döyən valideynlərin və ya qəyyumların əsas davranış xüsusiyyətləri:**

- ❖ uşaqlarda olan zədə səbəblərinin ziddiyyətli və dolaşıq izah edilməsi;
- ❖ zədələrin baş verməsində uşağın özünün təqsirləndirilməsi;
- ❖ tibbi yardıma gec müraciət edilməsi və ya heç müraciət edilməməsi;
- ❖ uşaqla rəftar edildikdə mənəvi dəstəyin və mehribanlıq hisslərinin olmaması;
- ❖ personala qarşı səbəbsiz aqressivliyin yaranması;
- ❖ uşaqda olan zədələrə yox, özünün problemlərinə daha çox diqqətin ayrılması.

**2. *<u>Emosional (psixoloji) zorakılıq</u>* uşaqda emosional inkişafın, davranışın və cəmiyyətə uyğunlaşma bacarıqlarının pozulmasına səbəb olan, bir dəfə və ya təkrarlanan psixi təsirin göstərilməsi, valideynlər, digər böyüklər tərəfindən uşağın rədd edilməsidir.**

Bütün zorakılıq növləri bu və ya digər dərəcədə emosional zorakılıqla bağlıdır.

**Uşaqlara qarşı kobud rəftarın bu növünə aşağıdakılar aiddir:**

- ❖ fiziki güc tətbiq etməməklə uşağın hədələnməsi, onun təhqir edilməsi və ləyaqətinin alçaldılması, aşkarcasına qəbul edilməməsi və daim tənqid olunması;
- ❖ uşağın lazımi stimullardan məhrum edilməsi, təhlükəsiz əhatədə olmaq və valideyn məhəbbəti kimi əsas ehtiyaclarının nəzərə alınmaması;
- ❖ valideyn tələbkarlığının uşağın yaşı və inkişaf səviyyəsinə uyğun olmaması;
- ❖ uşaqda psixi zədəyə səbəb olan kobud psixi təsirin göstərilməsi;
- ❖ uşağın qəsdən təcrid olunması;
- ❖ uşağın qeyri-sosial və ya zərərli vərdişlərə (alkoqolizm, narkomanlıq və s.) cəlb edilməsi və ya həvəsləndirilməsi.

**Emosional zorakılığa dair risk qrupları:**

- ❖ arzu olunmayan hamiləlikdən doğulan, ər və ya arvadın xoşagəlməz qohumlarına oxşayan uşaqlar;
- ❖ azyaşlı uşaqlar;
- ❖ əlilliyi, irsi xəstəliyi və ya digər xüsusiyyətləri olan uşaqlar;
- ❖ tərbiyə və münasibətlərdə qəddar, avtoritar, nəzarətedici üslublardan istifadə edən ailələrin uşaqları;
- ❖ həyat tərzində ailədaxili zorakılığın mövcud olduğu ailələrin uşaqları;
- ❖ spirtli içki, narkotik maddələr istifadə edən, depressiyadan əziyyət çəkən valideynlərin (və ya valideynlərdən birinin) uşaqları;
- ❖ çoxsaylı sosial-iqtisadi və psixoloji problemləri olan ailələrin uşaqları.

**Emosional (psixoloji) zorakılığa məruz qalan uşaqların xüsusiyyətləri:**

- ❖ fiziki inkişafda geriləmə;
- ❖ nitq inkişafında əhəmiyyətli dərəcədə çatışmazlıqlar;
- ❖ çətin tərbiyə olunma;
- ❖ həmyaşıdları ilə müqayisədə ümumi inkişafda (yaddaşın, diqqətin, qavramanın, təfəkkürün, hərəkətliliyin inkişafı) geriləmə;
- ❖ gecə və/və ya günorta saatlarında sidik saxlaya bilməmə;
- ❖ baş və qarın ağrıları kimi psixo-somatik şikayətlər (deyir ki, halı pisdir, ürəyi sancır və s.)

**Uşağın emosional və davranış reaksiyaları:**

- ❖ digərlərinə mane olaraq həddindən artıq fəallıq nümayiş etdirir;
- ❖ qeyri-adi vərdişləri var (dişləyir, monoton hərəkət edir, barmaq sorur və s.);
- ❖ pis yatır, gecə qorxuları olur;
- ❖ digər uşaqlarla oynaya bilmir;
- ❖ hər şeydən qorxur;
- ❖ tez-tez vəsvəsələr/qarabasmalar yaranır;
- ❖ əsəbi reaksiyalar olur;
- ❖ ləng olur, öz xəyallarına qapanır, ünsiyyətə və ya fəaliyyətə qoşulmur;
- ❖ emosional həssaslıq yoxdur, biganəlik mövcuddur;
- ❖ kədərli və depressiyalı olur;
- ❖ böyüklər arasında diqqət və qayğı axtarıb tapmağa cəhd edir.

**Emosional zorakılığa məruz qalan uşağın fərdi xüsusiyyətləri:**

- ❖ özünüqiymətləndirmə aşağı səviyyədədir;
- ❖ özünə hörmət hissi aşağı səviyyədədir;
- ❖ aqressivlik və ya laqeydlik;
- ❖ tənhalıq və heç kəsə lazım olmaması hissi;
- ❖ dostların olmaması;
- ❖ cüzi stres zamanı narahatlıq və həyəcan yaranır.

**Emosional zorakılıq törədən böyüklərin davranış xüsusiyyətləri:**

- ❖ uşaqda ehtiyac yarandıqda, ona təsəlli vermirlər;
- ❖ uşağı digər insanlar arasında təhqir edir, danlayır, alçaldır və ələ salırlar;
- ❖ əleyhinə olaraq, onu digər uşaqlarla müqayisə edir, ona daim həddindən artıq tənqidi yanaşırlar;
- ❖ özlərinin hər bir uğursuzluğunda uşağı təqsirləndirir, onu "qapazaltı" edirlər və s.



**3. *<u>Cinsi zorakılıq</u>* böyüklər tərəfindən cinsi şəhvət və ya mənfəət əldə etmək məqsədilə uşağın razılığı olduqda və ya olmadıqda, onun cinsi hərəkətlərə cəlb edilməsidir.**

**Bu zorakılıq növünə aşağıdakılar aiddir:**

- ❖ uşaqla vaginal, anal, oral üsullarla cinsi əlaqədə olmaq;
- ❖ manual, oral, genital və ya uşağın cinsi orqanları ilə hər hansı digər bədən əlaqəsi, eləcə də erogen zonalarının həvəsləndirilməsi;
- ❖ uşaqlıq yoluna və ya anusa yad cisimlərin yeridilməsi;
- ❖ pornoqrafik məqsədlərlə uşağın istismarı və ya fahişəliyə cəlb edilməsi;
- ❖ uşaq və ya böyük tərəfindən qarşılıqlı onanizm;
- ❖ uşağın cinsi həvəsləndirilməsi məqsədi ilə erotik və pornoqrafik materialların nümayişi;
- ❖ uşağın gözü qarşısında cinsi əlaqədə olmaq;
- ❖ uşağın gözü qarşısında cinsi orqanlarının, döşün və sağrı nahiyələrinin nümayişi (ekshibisionizm);
- ❖ gigiyenik intim prosedurlar zamanı uşağa gizli baxmaq (vuayerizm), eləcə də uşağı soyunmağa məcbur etmək.

Uşağın cinsi əlaqəyə razılıq verməsi bunun zorakılıq olmamasına əsas vermir, çünki:

- ❖ böyükdən asılı olan uşaq sərbəst qərar verə bilmir;
- ❖ uşaq funksional baxımdan inkişaf etmədiyinə görə cinsi xarakterli hərəkətləri dərk etmir;
- ❖ uşaq belə hərəkətlərin onun üçün mənfi nəticələrini qabaqcadan təsəvvür etmək iqtidarında deyil.

**Cinsi zorakılıq çox vaxt o ailələrdə baş verir ki, orada:**

- ❖ patriarxal-avtoritar qaydalar mövcuddur;
- ❖ uşağın valideynlərlə, xüsusilə də ana ilə münasibətləri pisdir;
- ❖ valideynlər arasında münasibətlər mübahisəlidir;
- ❖ uşağın anası işdə həddindən artıq məşğuldur;
- ❖ uşaq uzun müddət doğma atasız yaşayıb;
- ❖ doğma atası əvəzinə, atalıq və ya anasının məşuqu olub;
- ❖ ana xroniki xəstədir və ya əlilliyi var, əksər vaxtı xəstəxanada keçirir;
- ❖ valideynlər (və ya onlardan biri) içki aludəçisi, narkoman, toksikomandır;
- ❖ valideynlər (və ya onlardan biri) psixi xəstədir;
- ❖ ana uşaqlıqda cinsi zorakılığa məruz qalıb və s.

**Uşağın cinsi zorakılığa məruz qalmasının təyin edilməsi:**

- ❖ cırılmış, çirklənmiş və ya qana bulaşmış alt paltarlar;
- ❖ hərəkət etdikdə və oturduqda yaranan çətinliklər;
- ❖ cinsi orqanlar nahiyəsində ağrıların olması, naməlum qarın ağrıları, baş ağrıları;
- ❖ cinsi orqanlar nahiyəsində şişkinlik və ya qıcıqlanma;
- ❖ cinsi orqanlardan qanaxma;
- ❖ döş, sağrılar, aşağı qarın nahiyəsi və ombalarda qançırlar;
- ❖ geyim, dəri və cinsi orqanlar nahiyəsində, ombalarda sperma izləri;
- ❖ xarici cinsi orqanlarda göyərmə, sıyrıntılar, kiçik yaralar, yanıqlar, ziyillər, ifrazatlar;
- ❖ anus və perianal nahiyədə zədələr, sıyrıntılar, qızartılar, şişkinlik, kiçik yaralar, yanıqlar, ziyillər, qovuqcuqlar, ifrazatlar, venaların şişməsi, anusun reflektor genişlənməsi, anusun zəifliyi, yarıqlar, görünən rektal selikli qişa, nəcis.

***<u>4. Uşağın əsas ehtiyaclarına biganəlik (mənəvi qəddarlıq)</u>*** valideynlər və ya onları əvəz edən şəxslər tərəfindən qayğının göstərilməməsi, eləcə də uşağın tərbiyəsinə dair öhdəliklərin vicdanla yerinə yetirilməməsidir ki, nəticədə onun sağlamlığı və inkişafı pozulur.

**Uşağın əsas ehtiyaclarının təmin olunmaması səbəbləri aşağıdakılar ola bilər:**

- uşağın yaşına və ehtiyaclarına uyğun qidanın, geyimin, yaşadığı yerin, təhsilin, tibbi yardımın olmaması;
- uşağa nəzarət və qayğının göstərilməməsi;
- uşağa diqqət və məhəbbətin verilməməsi və s.

Əksər hallarda aşağıda qeyd edilən valideynlər və ya onları əvəz edən şəxslər uşaqların əsas ehtiyaclarına etinasız yanaşırlar: içki aludəçiləri, narkomanlar, psixi pozuntuları olan şəxslər, təcrübə və bacarıqları olmayan gənc valideynlər, sosial və iqtisadi həyat səviyyəsi aşağı olanlar, xronik xəstəlikləri, əlilliyi, əqli geriliyi olanlar, uşaqlıqda kobud rəftarla qarşılaşanlar, cəmiyyətdən təcrid olunanlar.

**Uşaqlara qarşı mənəvi qəddarlığın nəticələri**

**Xarici əlamətlər:**

- yorğun, yuxulu görünüş, solğun sifət, şişkin göz qapaqları;
- südəmər uşaqlarda susuzlaşma, dəridə bişmələr, səpgilər;
- mövsümə və ölçülərinə uyğun olmayan səliqəsiz geyim;
- pintilik, pis qoxu.

**Fiziki əlamətlər:**

- çəki və boya görə həmyaşıdlardan geriləmə;
- pedikulyoz, qoturluq;
- tez-tez baş verən "bədbəxt hadisələr", irinli və xronik infeksion xəstəliklər;
- müalicə olunmamış karies;
- lazımi peyvəndlərin alınmaması;
- nitqi və psixi inkişafda geriləmə.

**Davranışın xüsusiyyətləri:**

- daim ac və susuzdur: yemək oğurlaya, tullantılarda eşələnə bilər və s.;
- oynamaq bacarıqları olmur;
- daim diqqət/qayğının axtarışındadır;
- uşaq bağçasına davamiyyəti zəifdir;
- davranışın dəyişkənliyi: infantildir və ya böyüyün roluna girir, özünü "yanlış böyük" kimi aparır, aqressivdir, özünə qapanır, ruh düşkünlüyü var, hiperaktivdir, qəmgindir, yaxşıya-pisə fərq qoymadan dostluq edir və ünsiyyət qura bilmir;
- nəyisə yandırmağa meyillilik, heyvanlara qarşı qəddarlıq;
- onanizm, yırğalanma, barmaqların sorulması və s.

Bu faktların düzgün müəyyənləşdirilərək araşdırılması uşaqlara qarşı zorakılığın aradan qaldırılmasında əvəzsiz rola malikdir.

Aşağıdakı hallar məktəbəqədər təhsil müəssisəsində pedaqoji heyət və digər işçilər tərəfindən uşaqlara qarşı zorakılıq halları kimi qeydə alına bilər:

- uşağın həmyaşıdları ilə daimi müqayisəsi (məs, "Hamı hazırdır, sən qaldın, sən necə pinti uşaqsan, bax, heç digərləri elə deyil" və s.);
- azyaşlının xarici görünüşünə uyğun adlandırılması (balacaboy, qara, eynəkli, topal, şəlpəqulaq və s. kimi ləqəblər);
- uşaqların tədbirlərdə iştirakçılığının qrup üzrə düzgün paylanmaması (bütün tədbirlərdə eyni uşaqlara üstünlük verilməsi, digərlərinin kənarda saxlanılması);
- uşaqların təməl ehtiyacları qarşılanarkən fiziki (hərəkətlərlə) və ya psixoloji (sözlərlə) məcburetmə ("Yeməyini yeməsən, gəlib səni götürməyəcəklər", "Yatmasan, xoxan gələcək", "Altını bir də batırsan, səni təmizləməyəcəm" və s.);
- uşaqlara qarşı müxtəlif tipli cəzalandırma üsullarından istifadə edilməsi.



## MƏKTƏBƏQƏDƏR TƏHSİLDƏ UŞAQLARA QARŞI ZORAKILIĞIN AŞKARLANMASI ZAMANI YÖNLƏNDİRMƏ PROSEDURLARI

Məktəbəqədər təhsil müəssisəsində uşaqlara qarşı zorakılığın aşkarlanması və mübarizədə sosial iş vacib rol oynayır. Sosial işçilər uşaqlar arasında zorakılığı aşkar etmək, onları sosial və psixoloji dəstəklə təmin etmək üçün səy göstərir. Sosial işçilər həmçinin, təhsilverənləri, valideynləri və uşaqları zorakılığın səbəbləri və mübarizə yolları barədə maarifləndirirlər. Bütün bu



addımlar zorakılığın qarşısının alınmasında müstəsna rola malikdir.

Məktəbəqədər təhsil müəssisələrində zorakılığın qurbanı olan uşaqlar üçün yönləndirmə sistemi onların müdafiəsini və dəstəyini təmin etmək üçün çox vacibdir. Bura zorakılıq hallarının aşkar edilməsi, risklərin qiymətləndirilməsi və uşaqları müvafiq dəstək və müdafiə xidmətlərinə yönləndirmək üçün mexanizmlər daxildir. Belə bir sistemin əsas elementlərinə zorakılıq hallarına operativ reaksiya verilməsi, uşaqlar üçün təhlükəsiz mühitin təmin edilməsi, zorakılığın qarşısının alınması üçün işçi heyətinin təlimi, məktəbəqədər təhsil müəssisələrində zorakılıq problemlərinə effektiv cavabın təmin edilməsi üçün valideynlər və digər maraqlı tərəflərlə əməkdaşlıq daxildir.



Bundan əlavə, məktəbəqədər təhsil müəssisələrində zorakılığın qurbanı olan uşaqlar üçün yönləndirmə sistemlərinə həm uşaqlar, həm də onların ailələri üçün psixoloji dəstək mexanizmləri daxil edilməlidir. Bu, zorakılığa məruz qalan uşaqlar və onların valideynləri üçün məsləhət və terapiya, həmçinin dəstək və zədədən sağalma üçün qrup seanslarının təmin edilməsini əhatə edə bilər. Bundan əlavə, yanaşmaları daim təkmilləşdirmək, uşaqların təhlükəsizliyini və rifahını təmin etmək üçün məktəbəqədər təhsil müəssisəsisələrində zorakılığın qarşısının alınması və onunla mübarizə üzrə müdaxilələrin monitorinqi və səmərəliliyinin qiymətləndirilməsi sisteminin yaradılması vacibdir.

Bununla yanaşı məktəbəqədər təhsil müəssisəsisələrində zorakılığa məruz qalan uşaqların sosial reabilitasiyası onların sağlam inkişafında mühüm rol oynayır. Bu prosesə uşaqların emosional və psixoloji vəziyyətinin bərpasına yönəlmiş psixoloji dəstək, məsləhət, terapiya və digər fəaliyyətlər daxildir. Uşaqların özlərini qorunmuş və dəstəklənmiş hiss edə biləcəyi təhlükəsiz və dəstəkləyici mühitin təmin edilməsi də vacibdir. Bundan əlavə, sosial reabilitasiya böyüklərə və ətraf mühitə inamı bərpa etməyə, həmçinin özünümüdafiə və emosiyaların idarə edilməsi bacarıqlarının inkişafına kömək etməkdən ibarətdir. Uşaqların zədədən tam şəkildə sağalmasını təmin etmək üçün valideynlər və digər maraqlı tərəflərlə işləmək vacibdir.

Məktəbəqədər təhsil müəssisələrində zorakılığa məruz qalmış uşaqların sosial reabilitasiyası onların fiziki, psixoloji və sosial cəhətdən sağlamlaşdırılmasına yönəlmiş tədbirlər kompleksini əhatə edir. Sosial reabilitasiyaya, sosial qarşılıqlı əlaqə bacarıqlarının öyrədilməsi, başqalarına inamın forma-laşmasına dəstək, digər uşaqlar və böyüklərlə sağlam münasibətlər qurmaq bacarıqları daxildir. Ailələrlə əməkdaşlıq bu prosesdə əsas rol oynayır, çünki valideynlər və ya qəyyumlar mühüm dəstək və uşaqlarla ünsiyyət mənbəyi ola bilərlər. Ailələrin məlumat, resurslar və dəstək ilə təmin edilməsi onların uşaqlarının ehtiyaclarını daha yaxşı başa düşməsinə və onların bərpa prosesində fəal iştirak etməsinə kömək edir. Ümumiyyətlə, məktəbəqədər təhsil müəssisələrində zorakılığa məruz qalan uşaqların sosial reabilitasiyası, sosial və psixoloji problemləri əhatə edən kompleks dəstək təmin etmək üçün müxtəlif maraqlı tərəflərlə əməkdaşlıq çoxsəviyyəli yanaşma tələb edir.



**Bu sistem bir neçə əsas addımı əhatə edir:**

Müəyyənləşdirmə və hesabatlılıq: məktəbəqədər təhsil müəssisələrinin işçiləri uşaqlarda zorakılıq əlamətlərini müəyyən etmək üçün təlim keçməlidirlər. Zorakılıq müəyyən edildikdən sonra bu hallar dərhal aidiyyəti orqanlara bildirilməlidir.

**Qiymətləndirmə:** zorakılıq barədə məlumat aldıqdan sonra sosial işçilər, uşaqların müdafiəsi agentlikləri və ya hüquq-mühafizə orqanları, şiddətin

səviyyəsini və uşağın ehtiyaclarını müəyyən etmək üçün vəziyyəti qiymətləndirməlidirlər.

**Xidmətlərə yönləndirmə:** qiymətləndirməyə əsasən, uşaqlar dəstək və müdaxilə üçün müvafiq xidmətlərə yönləndirilməlidir. Bura məsləhət, terapiya, tibbi yardım, hüquqi yardım və zəruri hallarda müvəqqəti sığınacaq daxil ola bilər.

**Koordinasiya və əməkdaşlıq:** uşaqların müdafiəsi sistemində iştirak edən müxtəlif agentliklər və mütəxəssislər əlaqələndirilmiş fəaliyyəti təmin etmək üçün əməkdaşlıq etməlidirlər. Bura məktəbəqədər təhsil müəssisələri, sosial xidmətlər, səhiyyə işçiləri və hüquq-mühafizə orqanları arasında əlaqə daxildir.

**İzləmə və monitorinq:** uşağın vəziyyətinin inkişafına və göstərilən müdaxilələrin effektivliyinə nəzarət etmək vacibdir. Uşağın təhlükəsizliyini və rifahını təmin etmək üçün sonrakı qiymətləndirmələr və davamlı dəstək tələb oluna bilər.

**Ailələrə dəstək:** zorakılıq hallarında dəstək uşağın ailəsinə və ya məktəbəqədər təhsil müəssisəsinə göstərilməlidir. Bu, məsləhət, valideynlərin maariflənməsi və zorakılığa səbəb olan hər hansı əsas problemlərin həlli üçün onların icma resursları ilə əlaqələndirilməsini əhatə edə bilər. Ümumilikdə, məktəbəqədər təhsil müəssisəsilərindəki zorakılıq hallarında effektiv yönləndirmə sistemi əməkdaşlıq, çevik fəaliyyət və uşağın təhlükəsizliyinə, ümdə maraqlarına diqqətin ayrılmasını tələb edir.

Yuxarıda qeyd olunan əsas addımlara əlavə olaraq, məktəbəqədər təhsil müəssisələrində zorakılığın qurbanı olan uşaqlarla bağlı işlərə yönləndirmə sisteminə bəzi detallar əlavə edilir:

**İxtisaslaşdırılmış dəstək xidmətləri:** zorakılığa məruz qalmış uşaqlar fərdi ehtiyaclarına uyğunlaşdırılmış xüsusi dəstək xidmətləri ilə təmin edilməlidirlər. Bura zədənin qarşısının alınmasına yönəlmiş terapiya, oyun terapiyası, art terapiya və ya uşaqlara öz təcrübələrini emal etməyə və sağalmağa kömək etmək üçün nəzərdə tutulmuş digər sübuta əsaslanan müdaxilələr daxil ola bilər.

**Böhran müdaxiləsi:** uşağın təhlükəsizliyinin risk altında olduğu hallarda, məsələn, davam edən şiddət, zorakılıq, təhlükə olduqda yönləndirmə sistemi böhrana müdaxilə üçün müddəaları ehtiva etməlidir. Bu, zorakılıq mühitindən təcili çıxarılma və daha uzunmüddətli həll yolları hazırlanarkən təhlükəsiz mühit, sığınacaq və ya himayədar, digər uşaq müəssisəsinə yerləşdirilməni əhatə edə bilər.

**Hüquqi yardım:** zorakılığa məruz qalmış uşaqların hüquqlarının qorunması, müdafiəsinin təmini üçün hüquqi yardım tələb edilə bilər. Hüquqi yardımı uşaq hüquqları və müdafiəsi üzrə ixtisaslaşan uşaq müdafiə təşkilatları, hüquqi yardım xidmətləri və ya hüquq müdafiəçiləri göstərə bilərlər.

**Təhsil və təlim:** məktəbəqədər təhsil müəssisələrinin işçiləri və yönləndirmə sistemində iştirak edən digər mütəxəssislər müvafiq qanunvericilik, zorakılıq əlamətlərinin aşkarlanması, zədəyə məlumatlı yanaşma və uşaqlara dəstək üçün ən yaxşı təcrübələr istiqamətində davamlı təhsil və təlim almalıdırlar.

**Profilaktik tədbirlər:** yönləndirmə sisteminin əsas diqqəti zorakılıq halları baş verdikdən sonra onlara reaksiya vermək olsa da, ilk növbədə baş verən zorakılığın qarşısını almaq üçün səylər göstərilməlidir. Bura müəssisələrdə hərtərəfli anti-zorakılıq siyasəti və protokollarının həyata keçirilməsi, pozitiv valideynlik təcrübələrinin təşviqi, uşaqların öz hüquqları və şəxsi təhlükəsizliyi haqqında maarifləndirilməsi daxil ola bilər.

**İcmanın iştirakı:** uşaqlara qarşı zorakılığın qarşısının alınması və onlara reaksiya verilməsi səylərinə daha geniş ictimaiyyəti cəlb etmək vacibdir. Bu, məlumatlılığı artırmaq, resurslarla təmin etmək, ehtiyacı olan uşaqlar və ailələr üçün dəstək şəbəkəsi yaratmaq üçün yerli təşkilatlar, icma əsaslı qruplar və digər maraqlı tərəflərlə əməkdaşlığı nəzərdə tutur. Məktəbəqədər təhsil müəssisələrində zorakılıq qurbanı olan uşaqların çoxşaxəli ehtiyaclarını təmin etmək üçün biz onların hüquqlarını daha yaxşı qoruya bilərik.



## AZƏRBAYCANDA SOSİAL XİDMƏT MƏRKƏZLƏRİ

**Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin**
**Qaynar Xətti: 102**

**Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi:**
**Tel: (+99412) 498-00-92, (+99412) 493-58-72**

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyinin**
**Çağrı Mərkəzi: 116123**

**Zorakılığın və cinayətin qurbanı olmuş Uşaq və Gənclər üçün Sosial Reabilitasiya Mərkəzi:**
***Mərkəzin əsas məqsədi zorakılıq və cinayətin qurbanı olan və eyni zamanda risk qrupuna daxil olan uşaq və gənclərlə psixoloji və sosial işin təşkili, həmçinin təkrar zorakılıq hallarının baş verməməsi üçün preventiv tədbirlərin görülməsidir. Mərkəzdə həmçinin uşağa qarşı baş vermiş zorakılıq və ya cinayət nəticəsində ona dəymiş zərərin aradan qaldırılması, uşaq və gənclərin sağlam mühitə və ailəyə qaytarılması, cəmiyyətə yenidən inteqrasiya və adaptasiya olunması üçün də tədbirlər həyata keçirilir.***
**Tel.: (+99412) 480-22-31, mobil: (+99450) 680-22-80**

AZƏRBAYCAN UŞAQ QAYNAR XƏTTİ

**Azərbaycan Uşaq Qaynar Xətt Xidməti:**
***Xidmətin əsas məqsədi çətin vəziyyətdə olan, problemlə üzləşmiş hər bir uşağa emosional, psixoloji, mənəvi və ilkin hüquqi yardımın göstərilməsidir. Qaynar Xətt uşaqlara üzləşdiyi çətinliklərin və problemlərin həllinə dair 24/7 məsləhətlər verir, onların müraciətlərinin digər müvafiq xidmətlərə yönəldilməsini və tələb olunduqda, təxirəsalınmaz köməyin göstərilməsini təmin edir.***
**Tel.: 116111**
**Mobil: (+99451) 580-22-80, (+99451) 880-11-80**

TƏMİZ DÜNYA

**"Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyi-Sığınacaq:**
**Tel.: (+99412) 497-10-58, (+99412) 511-11-51**

**"Ümid Yeri" Uşaq Sığınacağı Xeyriyyə Cəmiyyəti:**
**Tel: (+994 12) 556-19-16, (+994 55) 222-02-12, (+994 55) 222-02-03**

**Azərbaycan Uşaqlar Birliyi - Uşaq Sığınacağı Reinteqrasiya Mərkəzi:**
**Tel: (+994 55) 466-08-06, (+994 12) 513-24-63**

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI


*Uşaq hüquqları haqqında Qanunvericilik toplusu. Bakı: Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin nəşri, 2002.*

*Права ребенка. Раздел «G» в кн.: Права человека. Сборник международных договоров. Том. Женева: ООН, 2002.*

*Azərbaycanda BMT-nin Uşaq hüquqları Konvensiyası və BMT-nin Uşaq Hüquqları Komitəsinin 1997-ci ildə təqdim etdiyi Yekun tövsiyyələrin icrasına dair Alternativ hesabat. Uşaq hüquqları üzrə Azərbaycan QHT Alyansı. Hesabat- Bakı, 2005.*

*Nəsib Şükürov: Yetkinlik yaşına çatmayanların hüquq və azadlıqlarının müdafiəsində Yuvenal Ədliyyənin rolu və onun təkmilləşdirilməsi (monoqrafiya), http://huquq.org.az/*

*BMT-nin Uşaq Hüquqları Konvensiyası Azərbaycan Respublikasının dördüncü dövri HESABATI,BAKI 2011.*
*Azərbaycan Respublikasının Konstitusiyası;*

*"Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanunu;*

*BMT-nin Uşaq hüquqlarına dair Konvensiyası;*

*Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında Azərbaycan Respublikasının Qanunu;*

*Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamə;*

*"Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında" Avropa Şurası Konvensiyası;*

*Psixoloji yardım haqqında Azərbaycan Respublikasının Qanunu;*

*Sosial xidmət haqqında Azərbaycan Respublikasının Qanunu;*

*"Yetkinlik yaşına çatmayanlar üçün ixtisaslaşdırılmış sosial reabilitasiya müəssisələrində yetkinlik yaşına çatmayanlara xidmət göstərilməsi Qaydası"*

*Adəm Günəş – Uşaq nəyi, niyə edir? Məktəbəhazırlıq qruplarında inklüziv təlimin təşkili, müəllimlər üçün metodiki vəsait – Azərbaycan Respublikasının Təhsil İnstitutu 2021*

*https://www.naeyc.org/resources/position-statements/ethical-conducthttps://www.ukeducation.info/career-options/career-guide/career-path-step-by-step/student-teacher-child.html#google_vignette*